10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5



# QANUNÇULUQ

HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı




№ 03 - mart 2021

https://fliphtml5.com/ninpc/iuqd 1/54



**Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.**

**Heydər ƏLİYEV,**
**Azərbaycan xalqının ümummilli lideri**



**Əminəm ki, ədliyyə və məhkəmə orqanları hüquqi dövlət quruculuğu istiqamətində səylərini bundan sonra da davam etdirəcək və qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# QANUNÇULUQ

## hüquq jurnalı

№ 3 - mart 2021

**TƏSİSÇİ:**

Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi

**BAŞ REDAKTOR:**

Fikrət Məmmədov

**REDAKSİYA HEYƏTİ:**

Fuad Ələsgərov
Toğrul Musayev
Azər Cəfərov
Adil Əliyev
Cavid Hüseynov
Elçin Xələfov

*"Qanunçuluq" jurnalı 1966-cı ildən nəşr olunur. Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu sahəsində görülən işləri, ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatını, ədliyyə və məhkəmə fəaliyyətini işıqlandırır, öz səhifələrində görkəmli alimlərin, təcrübəli hüquqşünasların məqalələrinə və gənc mütəxəssislərin çıxışlarına yer verir, Azərbaycan ədliyyəsinin tarixi, məhkəmə təcrübəsi və digər mövzularda materiallar, eləcə də yeni qəbul olunan qanunların, fərmanların və digər normativ-hüquqi aktların mətnlərini müntəzəm şəkildə dərc edir.*

© "Ədliyyə Nəşriyyat Evi"MMC

# Bu sayımızda

## RƏSMİ MƏLUMAT

Prezident İlham Əliyev Füzuli və Xocavənd rayonlarında olub ....4
Prezident İlham Əliyevin Şuşa şəhərinə səfəri ....6
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müraciəti ....8
Ölkə Prezidentinin növbəti humanist addımı ....11
8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik ....12
Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik....13
Birinci vitse-prezident Mehriban Əliyeva Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarını təbrik edib ....14
Birinci vitse-prezident Mehriban Əliyeva Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib ......14

## ƏDLİYYƏ XƏBƏRLƏRİ

Vətən müharibəsində iştirak etmiş ədliyyə işçiləri ilə görüş ....15
Şəhid ədliyyə işçisinin xatirəsi anılıb ....17
BMT-nin mötəbər Konqresində Ermənistanın hərbi cinayətləri ifşa edildi ....18
Cinayətkarlığın qarşısının alınması, cinayət ədliyyəsi və qanunun aliliyi üzrə tədbirlərin gücləndirilməsi: 2030-cu ilədək Gündəliyin həyata keçirilməsinə doğru (Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Məmmədovun BMT-nin Cinayətkarlığın qarşısının alınması və cinayət ədliyyəsi üzrə 14-cü Konqresində çıxışı) ....20
Azərbaycan və Yaponiya ədliyyə nazirlərinin görüşü keçirilib ....23
Yaponiyanın ölkəmizdəki səfiri ilə Ədliyyə Nazirliyində görüş ....24
Milli Məclisin iclasında Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi dinlənilib ....25
"Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətlə bağlı illik məruzə" (2020-ci il üzrə) (Azərbaycan Respublikası ədliyyə nazirinin müavini Vilayət Zahirovun Milli Məclisdə çıxışı) ....25
Ədliyyə naziri tərəfindən vətəndaşların videoqəbulu keçirilib ....31
Hakimliyə namizədlərlə test imtahanı....31
Ədliyyə və məhkəmə islahatlarının sahibkarların hüquqlarının etibarlı müdafiəsində roluna dair videokonfrans ....32
Ədliyyə fəaliyyətinə dair onlayn brifinqlər keçirilib....34
Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti ilə əməkdaşlıq davam etdirilir....39

## 2021-Cİ İL AZƏRBAYCANDA "NİZAMİ GƏNCƏVİ İLİ"DİR

Xəyyam İsmayılov. Azərbaycanda siyasi-hüquqi ideologiyanın formalaşması və inkişafında Nizami Gəncəvi yaradıcılığının rolu....40

## YENİ QANUNLAR, FƏRMANLAR...

"Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 9 mart tarixli 280-VIQD nömrəli Qanunu ....50
"Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 9 mart tarixli 281-VIQD nömrəli Qanunu ....51

# Prezident İlham Əliyev Füzuli və Xocavənd rayonlarında olub

**Martın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Füzuli və Xocavənd rayonlarında olublar.**

Prezident İlham Əliyev müharibədən dörd ay keçməsinə baxmayaraq, aparılan böyük quruculuq işlərinə toxunaraq icra olunan bir neçə yol layihəsini qeyd edib, Füzulidən Şuşaya yol - Zəfər yolu çəkildiyini, Bərdə-Ağdam yolunun yaxın gələcəkdə, eyni zamanda Horadizdən Zəngilana qədər yol çəkiləcəyini vurğulayıb, Füzuli-Hadrut avtomobil yolunun təməlini qoyub.

Bu yol başlanğıcını Zəfər yolundan götürür və yeni inşa ediləcək Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yoluna birləşir. Uzunluğu 13 kilometr olan bu yol 4 hərəkət zolaqlı olacaq.



Füzuli-Hadrut avtomobil yolunun təməlinin qoyulması

Yol boyunca avtomobil körpüləri inşa ediləcək.

Füzulidən Xocavənd rayonuna yola düşən dövlətimizin başçısı yol boyunca dağıdılmış bütün yaşayış məntəqələrinin bir daha şahidi olub, işğaldan azad edilmiş kəndlər barədə məlumat verib.



Hadrut qəsəbəsində Azərbaycan Bayrağının qaldırılması

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Hadrut qəsəbəsində dövlət bayrağımızı qaldırıb və çıxış edib.

Dövlətimizin başçısı oktyabrın 9-da Hadrut qəsəbəsinin azad edilməsinin çox uğurlu hərbi əməliyyat nəticəsində





Xocavənd rayonu Hünərli kəndində qədim Alban məbədi ilə tanışlıq

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5






Xocavənd rayonunun Tuğ kəndində, Azıx mağarasında

mümkün olduğunu, bunun böyük əhəmiyyətə malik olan bir əməliyyat olduğunu bildirərək, ondan sonra Füzuli şəhərinin işğaldan azad edildiyini vurğulayıb. Qeyd edib ki, Şuşa əməliyyatının uğurlu keçirilməsi üçün məhz Hadrutu azad etmək önəmli idi. Yenə də düşmənin bizi gözləmədiyi istiqamətdən Şuşaya yaxınlaşdıq. Dağlardan, dərələrdən, sıldırım qayalardan keçərək, o qayaları dırmaşaraq biz Şuşanı işğalçılardan azad etdik. Ona görə Hadrut əməliyyatı dünyanın hərb elmində xüsusi yer tutacaq.

Bütövlükdə 44 günlük şanlı müharibəmizin, Zəfərimizin bu gün dünyanın aparıcı ali məktəblərində öyrənildiyini və artıq hərbi ekspertlər, mütəxəssislər, hətta bir çox ölkələrin siyasətçilərinin bu müharibənin, XXI əsrin müharibəsi olmasından bəhs etdiklərini qeyd edib.

Bildirib ki, Hadrut qəsəbəsi keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Hadrut rayonunun mərkəzi sayılırdı. Dağlıq Qarabağ Muxtar Vilayəti ləğv olunandan sonra keçmiş vilayətin Martuni və Hadrut rayonları birləşdirildi və Xocavənd rayonu yaradıldı. Bu əraziyə qədim tarixi adı - Xocavənd adı qaytarılmışdır. Müharibə dövründə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Martuni rayonunun 50 faizdən çox hissəsi və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Hadrut rayonunun 100 faiz ərazisi işğalçılardan azad edilmişdir. Bəziləri müharibənin yekunlarını şərh edərkən deyirlər ki, Azərbaycan yeddi rayonu azad edib, bu, belə deyil. Biz yeddi rayonu, Şuşa şəhərini, Suqovuşan qəsəbəsini, Talış qəsəbəsini, keçmiş Hadrut rayonunu, keçmiş Martuni rayonunun böyük hissəsini azad etmişik və tarixi ədaləti bərpa etmişik. Beləliklə, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edərkən tarixi nailiyyətlərə imza atmışdır.

Ölkə rəhbəri azad edilmiş torpaqlarda bu gün böyük quruculuq işlərinin aparıldığını, ermənilər tərəfindən bütün şəhərlərimizin, kəndlərimizin, tarixi abidələrimizin, məscidlərimizin, qəbirlərimizin dağıdıldığını, misli görünməmiş vandallıq, barbarlıq törədildiyini diqqətə çatdırıb, Hadrut qəsəbəsində qanunsuz olaraq Ermənistandan və xarici ölkələrdən ermənilər gətirilib zorla məskunlaşdırıldığını vurğulayıb.

"Azərbaycan əsgəri yüksək mənəvi keyfiyyətlərə malik olan əsgərdir və əsgərə, bütün hərbçilərə verilən təlimat yerinə yetirildi", - deyən dövlətimizin başçısı bu gün buraya bu torpaqların sahibləri kimi qayıtdığımızı, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağının dalğalandığını bildirib, azərbaycanlıların bundan sonra öz dədə-baba torpaqlarında əbədi yaşayacağını qeyd edib.

Sonra Prezident İlham Əliyev Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolunun təməlini qoyub. Bu yol başlanğıcını Hadrut yaşayış məntəqəsindən götürməklə və Cəbrayıl rayonundan keçməklə Şükürbəyli kəndində Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi avtomobil yoluna birlə-



https://fliphtml5.com/ninpc/iuqd 7/54

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5



şir. Uzunluğu 43 kilometrdir. Dörd hərəkət zolaqlı bu yol boyunca avtomobil körpüləri tikiləcək.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva keçmiş Hadrut Rayon Partiya Komitəsinin binasında olub, Hünərli kəndindəki Alban məbədi ilə tanış olublar.

Ermənilərin qədim Alban kilsəsini erməniləşdirmək istədiklərini, ancaq buna nail ola bilmədiklərini söyləyən dövlətimizin başçısı onların digər məscidlərimizdə olduğu kimi, qədim Alban məbədini də təhqir etdiklərini bildirib. Qeyd edib ki, Azərbaycan ərazisində bütün dinlərin məbədləri dövlət tərəfindən qorunur, dövlət tərəfindən tikilir və bütün dünya bunu bilir. Ermənilərin vəhşiliyini dünya bilməlidir, görməlidir bizim məscidlərimiz nə gündədir. Azad edilmiş torpaqlarda 67 məscid var idi, cəmi ikisi qalıb, yarıdağılmış. Özü də onlardan müxtəlif məqsədlər üçün istifadə ediblər.

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Tuğ kəndində olub, məktəb binasına, dağıdılmış evlərə baxıb, Alban məbədində olublar.

Daha sonra Azıx kəndində olan dövlətimizin başçısı Azıx mağarasına qalxıb. Bildirib ki, bu mağaranı azərbaycanlı alim, arxeoloq Məmmədəli Hüseynov 1960-cı ildə aşkar etmişdir və ondan sonra burada tədqiqatlar aparılmışdır. Bu, dünyanın ən qədim insanının yaşayış yerlərindən biridir, Azərbaycan tarixinə məxsusdur, bizim tarixi sərvətimizdir. Ermənistan bu mağarada qanunsuz olaraq işlər aparmışdır, xaricdən qanunsuz olaraq alimlər gətizdirmişdir. Onlar bu mağaraya, bizim tarixi irsimizə böyük ziyan vurmuşlar. Onlar bu ziyanın hamısını ödəyəcəklər. Onları məcbur edəcəyik.

# Prezident İlham Əliyevin Şuşa şəhərinə səfəri

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva martın 16-da Şuşa şəhərində olublar.**

Dövlətimizin başçısı yanvar ayında Şuşaya səfərini xatırladaraq şəhərin bərpası üzrə görülən işlərdən bəhs edib, Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün büstlərinin Şuşaya qaytarıldığını, Vaqifin məqbərəsində tezliklə bərpa işlərinə başlanacağını, bütün mövsümlərdə gözəl olan Şuşada bulaqların da bərpa olunacağını bildirib. Vaqifin məqbərəsinin bərpası ilə bağlı layihənin Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun öz vəsaiti hesabına Fonda xas olan zövqlə icra olunacağını diqqətə çatdırıb.





**Vaqif muzey-məqbərə kompleksinin bərpası ilə bağlı görülən işlərlə tanışlıq**



https://fliphtml5.com/ninpc/iuqd 8/54

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5






Karvansaray tarix-memarlıq kompleksində




"Qarabağ" mehmanxanasında aparılacaq təmir-bərpa işləri ilə tanışlıq




Şuşa rayonunun Daşaltı kəndində

Vaqifin muzey-məqbərə kompleksinə gələn dövlətimizin başçısına və birinci xanıma bu kompleksin bərpası layihəsi ilə bağlı məlumat verilib. Ölkə Prezidenti 1982-ci ilin yay ayında ulu öndər Heydər Əliyevin iştirakı ilə keçirilmiş Vaqif poeziya günlərinə aid arxivdən tapdığı şəkilləri nümayiş etdirərək mənfur düşmənin Vaqifin divarda olan təsvirini sökdüyünü, şairin büstünün dağıdıldığını qeyd edib, onların yenidən bərpa olunacağını söyləyib.

Sonra dövlətimizin başçısı, birinci xanım və Leyla Əliyeva Pənahəli xanın sarayının qalıqlarına baxıblar. Bu tikili Şuşa şəhərinin tarixi mərkəzində yerləşir və Qarabağ xanlığının banisi Pənahəli xanın iqamətgahı olmuş tarixi saray idi. Erməni vandalları işğal zamanı bu tarixi binanı da dağıdıblar.

Prezident İlham Əliyev Şuşanı salan Pənahəli xanın sarayının da ermənilər tərəfindən dağıdıldığını bildirərək azad edilmiş torpaqların erməni vəhşiliyinin şahidi olduğunu vurğulayıb.

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Molla Pənah Vaqifin büstünün qoyulacağı əraziyə gəliblər. Molla Pənah Vaqifin büstünün bərpası layihəsi də Heydər Əliyev Fondu tərəfindən icra olunacaq.

Erməni vandalları işğal zamanı Şuşa şəhərinin mərkəzi meydanında yerləşən, XIX əsrə aid Karvansaray tarix-memarlıq kompleksini də dağıdıblar. Kompleksə baxan dövlətimizin başçısına burada görüləcək işlərlə bağlı məlumat verilib.

Şəhərdə erməni vəhşiliyi ilə



https://fliphtml5.com/ninpc/iuqd 9/54

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5



üz-üzə qalan tikililərdən biri də Şuşa Dövlət Rəsm Qalereyasının binasıdır. Qalereya 1982-ci ildə yaradılıb və işğal dövrünədək - 1992-ci ilədək fəaliyyət göstərib.

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva "Qarabağ" mehmanxanasında aparılacaq təmir-bərpa işləri ilə tanış olublar. Mehmanxana ötən əsrin 80-ci illərinin əvvəllərində inşa edilib. Bina baxımsızlıqdan tamamilə yararsız vəziyyətə düşüb. Burada görüləcək işlər nəticəsində mehmanxana müasir səviyyəyə çatdırılacaq və Şuşa şəhərinə səfər edəcək qonaqların rahatlığı üçün bütün şərait yaradılacaq.

Dövlətimizin başçısına və birinci xanıma Şuşa şəhərində tarixi-dini abidələrin bərpası ilə bağlı görülən işlər haqqında məlumat verilib.

Səfər zamanı ölkə Prezidenti, birinci xanım və qızları Şuşa Xalça Muzeyində də olublar. Qarabağ xalçaçılıq sənəti ənənələrinin öyrənilməsi, qorunması və yaşadılması məqsədilə yaradılan bu muzey də işğal zamanı ciddi ziyan görüb. Sonra Şuşada Park otelin yerləşəcəyi binaya da baxıblar. Yenidənqurmadan sonra otel qonaqlarını müasir səviyyədə qarşılaya biləcək.

Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına icra olunacaq layihələrlə bağlı məruzə edib. Dövlətimizin başçısı Şuşada görüləcək işlərlə əlaqədar tapşırıq və göstərişlərini verib.

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşa rayonunun Daşaltı kəndində olublar.

Erməni qəsbkarlar tərəfindən 1992-ci ildə işğal olunan Daşaltı kəndi də hərtərəfli terrora məruz qalıb. Prezident İlham Əliyev kəndin bərpası ilə bağlı tapşırıqlarını verib.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müraciəti

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşada Cıdır düzündə bayram tonqalı alovlandırıblar.**

Sonra dövlətimizin başçısı müraciət edib.

- Əziz bacılar və qardaşlar, mən sizin hamınızı Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm! Bütün Azərbaycan xalqına cansağlığı, xoşbəxtlik arzulayıram!

Biz bu il Novruz bayramını Şuşada, Cıdır düzündə qeyd edirik. Bu, tarixi hadisədir. 2004-cü ildən başlayaraq, hər il mən Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edərkən deyirdim ki, biz öz doğma torpaqlarımıza qayıdacağıq. Deyirdim ki, biz ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik. Deyirdim ki, biz Novruz bayramını torpaqlarımız işğaldan azad olunandan sonra Qarabağda qeyd edəcəyik və bu gün gəldi. Bu gün biz Novruz bayramını qədim şəhərimizdə, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada qeyd edirik. Bu, tarixi hadisədir. Bu, böyük xoşbəxtlikdir. Allah Azərbaycan xalqının dualarını eşitdi. Hər il Novruz bayramı ərəfəsində hamımız yəqin ki, fikirləşirdik, bir-birimizə deyirdik, inşallah, gələn il Novruz bayramını Qarabağda qeyd edək, gələn il Novruz bayramını Şuşada qeyd edək və bu gün gəldi. 28 ildən sonra biz Şuşaya qayıtdıq. Novruz bayramını Cıdır düzündə qeyd edirik, tarixi ədaləti bərpa etmişik.

Noyabrın 8-də Şuşanın azad olunması ilə bağlı müjdəni Azərbaycan xalqına verərkən demişdim ki, Şuşa, sən azadsan! Bu gün azad Şuşada biz öz milli bayramımızı - Novruz bayramını qeyd edirik. Şuşa 28 il əsarətdə idi. 28 il mənfur düşmən tərəfindən dağıdılırdı, məhv edilirdi. Şuşanın tarixi siması dağıntılara məruz qalırdı. Düşmən Şuşanı erməniləşdirmək istəyirdi. Şuşada Azərbaycan xalqının irsini silmək istəyirdi. Ancaq buna nail ola bilmədi. Bəli, Şuşa dağıntılara məruz qaldı, Şuşada tarixi abidələrimiz mənfur düşmən tərəfindən dağıdıldı. Ancaq Şuşa əyilmədi, sınmadı, öz ləyaqətini qorudu, Azərbaycanın milli ruhunu qorudu və bu gün Şuşada olarkən bir daha bunun canlı şahidi oluruq. Şuşa Azərbaycan xalqının ruhunu qoruya bildi və bizi gözləyirdi. Biz də gəlməli idik və gəlmişik. Ancaq gəlmək üçün güc toplamalı idik, gəlmək üçün hazırlıq işləri aparılmalı idi. Bütün istiqamətlər üzrə hazırlıq işləri



https://fliphtml5.com/ninpc/iuqd 10/54

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5



aparılmalı idi və aparılırdı. Biz ölkəmizin inkişafını təmin etməli idik. Xalqımızın birliyini təmin etməli idik. Vətəndaş müharibəsindən çıxmış ölkə üçün, xalq üçün bu, o qədər də asan məsələ deyildi. Vətəndaş müharibəsindən sonra bu günə qədər ölkədə gedən proseslər xalqımızı vahid ideya uğrunda, vahid amal uğrunda, torpaqlarımızın azad edilməsi amalı uğrunda birləşdirdi. Biz bu milli birliyi, milli həmrəyliyi təmin edə bildik. Bu, olmasa idi, bu Qələbə də olmayacaqdı.

Biz Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri beynəlxalq müstəvidə dünya ictimaiyyətinə çatdırmalı idik və çatdıra bildik. Beynəlxalq təşkilatlarda fəal işləyirdik və bizə sərf edən, həqiqəti əks etdirən, beynəlxalq hüququ əks etdirən, ona əsaslanan vacib qərar-qətnamələri qəbul etdirə bildik. Bu, Qələbəmizin hüquqi əsası idi, haqq-ədalətin bərpasının hüquqi əsası idi. Biz iqtisadi güc toplamalı idik və topladıq. Son illər ərzində Azərbaycan qədər sürətlə inkişaf edən ölkə bəlkə də dünyada yoxdur. Biz hərbi güc toplamalı idik və bu istiqamət birinci dərəcəli vəzifə idi. Təsadüfi deyil ki, mənim prezidentlik dövrümdə hərbi xərclər hər zaman birinci yerdə idi və bunu mən deyirdim, bəyan edirdim ki, biz hərbi xərclərimizi bundan sonra da artırmalıyıq. Biz müharibəyə hazırlaşmalıyıq, hazırlaşırıq. Açıq deyirdim bütün dünyaya və deyirdim ki, əgər düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz düşməni qovacağıq. Belə də oldu.

Biz güclü ordu yaratmışıq. Peşəkar ordu yaratmışıq. Qəhrəman ordu yaratmışıq. Hərbçilərimiz ən yüksək qiymətə layiqdirlər. Biz müharibə dövründə şəhidlər vermişik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Allah onların yaxınlarına səbir versin. Biz Şuşanı qan tökərək azad etmişik, Şuşa uğrunda ciddi döyüşlər gedirdi. Laçın dəhlizi boyunca işğalçıların qalıqları səpələnmişdi, yüzlərlə, bəlkə də minə qədər işğalçı Şuşa döyüşlərində məhv edildi. Hərbçilərimiz sıldırım qayalardan qalxaraq, dərədən-təpədən, Xocavənd meşələrindən, cığırlardan keçərək yüngül silahlarla Şuşaya gəldilər. Yüngül silahlarla, tapançalarla, süngü-bıçaqla mübarizə apardıq. Amma bizə qarşı burada toplardan, tanklardan istifadə olundu. Amma düşmən bizim gücümüzü gördü, iradəmizi gördü, milli ruhumuzu gördü və məğlub oldu. Şuşanın azad edilməsi Vətən müharibəsində xüsusi yerə malik olan hadisədir. Şuşa bizim hədəfimiz idi və biz bu hədəfə doğru gedirdik. Şuşaya qədər azad edilmiş bütün torpaqlarda Azərbaycan Ordusunun yerləşməsi Şuşanın azad olunmasını da şərtləndirmişdi. Cəbrayıl rayonu, Suqovuşan, Hadrut, Xocavənd rayonunun böyük hissəsi, Zəngilan, Füzuli, Qubadlı rayonları, Laçın rayonunun cənub hissəsi, Kəlbəcər dağları, Murov dağı və ondan sonra Şuşa. Müharibə zamanı 300-dən çox kənd və şəhər azad edildi, düşmən məcbur oldu, diz çökdü, təslim oldu və noyabrın 10-







https://fliphtml5.com/ninpc/iuqd 11/54

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5





da kapitulyasiya aktına imza atdı.

Müharibənin ilk günlərindən mən demişdim ki, düşmən bizə tarix versin, düşmənin rəhbəri tarix versin, nə vaxt bizim torpağımızdan rədd olur və biz müharibəni dayandırmağa hazırıq. Yenə də sözümdə durdum, bizə tarix verilən kimi, kapitulyasiya aktı imzalanan kimi müharibə dayandı və biz bir güllə atmadan, bir itki vermədən Ağdam, Kəlbəcər və Laçın rayonlarına da qayıtmışıq. Beləliklə, ərazi bütövlüyümüzü bərpa etdik. Yenə də deyirəm, biz hazırlaşmalı idik, Şuşa bizi gözləyirdi. Amma biz elə gəlməli idik ki, bu məsələni birdəfəlik həll edək.

Son illər ərzində mən həm çıxışlarda, həm müsahibələrdə dəfələrlə demişəm ki, bizə məsələnin yarımçıq həlli lazım deyil. Bu, nə deməkdir, Azərbaycan xalqı yəqin ki, gözəl başa düşür. Mən demişdim ki, hər şeyi vaxtında etmək lazımdır. Nəyi, nə vaxt, necə etmək lazımdır, bilirəm. Mənim üçün torpaqların azad edilməsindən daha ümdə vəzifə heç vaxt olmamışdır. Bütün prezidentlik dövrümü mən buna həsr etmişəm. Hər bir qərarın arxasında bu məqsəd, bu hədəf dayanmışdı - bu addım bizi qələbəyə yaxınlaşdıracaqmı, yoxsa yox. Deyirdim ki, hər birimiz hər gün qələbəni yaxınlaşdırmalıyıq. Mənim çıxışlarım var, onlar tarixdə qalır. Hər gün hər birimiz qələbəni yaxınlaşdırmalıyıq. Yaxınlaşdırdıq, hazırlaşdıq, gəldik düşməni məğlub etdik, məhv etdik. Gəlmişik və burada dayanmışıq. Müzəffər Ordunun Ali Baş Komandanı kimi dayanmışam qədim Azərbaycan torpağında və heç kim bundan sonra bizi buradan çıxara bilməz.

Şuşa bizim qədim şəhərimizdir. Erməni təbliğatı, saxta alimlər, fırıldaqçı siyasətçilər, beynəlxalq dairələr nə qədər desələr də xeyri yoxdur, tarix var. Pənahəli xan Şuşanın təməlini qoydu, Şuşanı tikdi, qurdu. Biz isə Şuşanı əsarətdən çıxardıq və xalqımıza qaytardıq, dövlətimizə qaytardıq. Şuşa qədim Azərbaycan şəhəridir, həmişə belə olub. Son 28 il ərzində mənfur düşmən nə qədər çalışsa da, Şuşanın Azərbaycan ruhunu, Azərbaycan görkəmini dəyişdirə bilməyib. Bəli, evlər sökülüb, tarixi abidələr sökülüb, məscidlər sökülüb, bir neçə eybəcər bina tikilib. Faktiki olaraq burada heç bir tikinti aparılmamışdır. Ancaq sovet vaxtından qalan o "xruşşovkalarda" məskunlaşmış 2 minə yaxın erməni yaşayırdı, onların da böyük hissəsi hərbçilər idi, onların ailələri idi. Əgər bu, erməni şəhəri idisə, niyə ermənilər gəlib burada yaşamadılar? Çünki ermənilərin tarixi yoxdur burada. Əgər erməni şəhəridirsə, niyə belə bərbad günə qoyublar? Niyə talayıblar Şuşanı, niyə 28 il ərzində bərpa etməyiblər? Bəs, hanı bunların xeyriyyəçiləri? Deyirdilər ki, xeyriyyəçilər bunu etdilər, onu etdilər, ora pul verdilər, bura pul verdilər. Hər il marafonlar keçirirdilər, on milyonlarla dollar pul yığırdılar. İndi bilinir ki, o pullar keçmiş rəhbərliyin cibinə gedirdi. Mən azad edilmiş torpaqlara dəfələrlə gəlmişəm. Burada olan səfalət bəlkə də dünyanın heç bir yerində yoxdur. Bəs, nə ediblər onlar? Hamısı yalan idi, saxta idi, tarixi necə saxtalaşdırıblar, reallığı da elə saxtalaşdırıblar. Onların şəbəkələri dünyanın müxtəlif paytaxtlarında fəaliyyət göstərir, saxta məlumat ötürür və bu saxta məlumat ətrafında sonra müzakirələr gedir və olmayan şeyləri reallıq kimi qələmə verirdilər.

Biz Şuşanı bərpa edəcəyik, mütləq bərpa edəcəyik. Artıq bərpa işlərinə start verildi. Bu gün Şuşada olarkən artıq verdiyim tapşırıqların yerinə yetirilməsi ilə tanış oluram. Biz nəinki Şuşanı, azad edilmiş bütün torpaqları bərpa edəcəyik. Quruculuq işləri başlamışdır, infrastruktur layihələrinə start verilmişdir. Ziyanın hesablanması aparılır, şəhərlərin baş planları hazırlanır. Birinci növbədə, Ağdam şəhərinin və Ağdam rayonunun bütövlükdə baş planı hazırlanır, onun ilkin



https://fliphtml5.com/ninpc/iuqd 12/54

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5



versiyası mənə təqdim edildi. Mənim tapşırıqlarımı nəzərə almaq şərtilə indi bunun üzərində iş gedir və yaxın gələcəkdə baş plan təsdiq olunacaq. Ondan sonra bərpa işləri azad edilmiş bütün torpaqlarda başlanacaq. Ermənilər 30 il bizim torpaqlarımızı dağıdıblar. Biz isə bu torpaqları bərpa edəcəyik, çünki bu torpaqların sahibləri bizik - Azərbaycan xalqıdır.

Şuşada olarkən insan Azərbaycan xalqının böyüklüyünü bir daha dərk edir. Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq. Biz hətta o satqınlığı, o xəyanəti edən AXC-Müsavat cütlüyünün mənfur liderlərinə layiq olduqları cəzanı verməmişdik. Halbuki onlar istənilən cəzaya layiqdirlər. Biz bu vəziyyətlə barışmadıq və mən dəfələrlə deyirdim ki, heç vaxt Azərbaycan xalqı bu vəziyyətlə barışmayacaq. Siyasi, iqtisadi, hərbi, mənəvi istiqamətlərdə, gənc nəslin tərbiyə edilməsi istiqamətində məqsədyönlü siyasət aparılırdı və elə gənc nəsil yetişdi ki, canını fəda etdi torpaq uğrunda. Elə gənc nəsil yetişdi ki, öz qanı-canı bahasına torpağımızı düşmənin əlindən aldı. Müharibədə bütün nəsillərin nümayəndələri iştirak ediblər, qəhrəmanlıq göstəriblər. Amma hər kəs bilməlidir ki, əsas missiyanı mənim prezidentlik dövrümdə yetişən gənclər yerinə yetiriblər, 2003-cü ildə uşaq olan gənclər yerinə yetiriblər. İlk növbədə, biz onlara borcluyuq, bütün Azərbaycan xalqına borcluyuq. Bütün xalqımız bu Qələbəni yaxınlaşdırırdı və bütün amillər birləşərək bu müharibənin nəticələrini şərtləndirdi.

Bizim müharibəmiz - İkinci Qarabağ müharibəsi bu gün dünyanın aparıcı ölkələrinin hərbi məktəblərində öyrənilir. Biz XXI əsrin müharibəsini aparmışıq, düşməni məhv etmişik. Erməni ordusu yoxdur, biz onu məhv etmişik. Bu gün Novruz bayramını Cıdır düzündə qeyd edərkən qürur hissi ilə deyirəm: "Şuşa sən azadsan!", "Şuşa Azərbaycandır!", "Qarabağ Azərbaycandır!"

# Ölkə Prezidentinin növbəti humanist addımı

**Ölkəmizdə əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş humanizm ənənələrinə daim sadiqlik nümayiş etdirilir, əfvetmə və amnistiya institutları işlək mexanizmlər əsasında davamlı olaraq geniş tətbiq olunur.**

Martın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncam imzalayıb.

Sərəncamda məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin, insan hüquqlarının müdafiəsi təşkilatlarının Azərbaycan Respublikasının Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq, məhkumların şəxsiyyətini, səhhətini, ailə vəziyyətini, törətdikləri cinayətlərin xarak-



terini və ictimai təhlükəlilik dərəcəsini, cəza çəkdikləri müddəti və həmin müddətdə davranışlarını nəzərə alaraq, humanizm prinsiplərinə əsaslandığı qeyd edilib.

Sərəncama əsasən, azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş 475 nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib. Bundan başqa, azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş 98 nəfərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb.

Ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş üç nəfərin cəzası 25 il müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəzlənib.

Eləcə də azadlıqdan məhrumetmə cəzasına şərti olaraq məhkum edilmiş iki nəfər cəzadan azad ediliblər.

Həmçinin azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş və cəzasının çəkilməsi təxirə salınmış üç nəfər cəzadan azad olunublar.

Azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 9 nəfər və islah işləri cəzasına məhkum olunmuş 12 nəfər cəzanın çəkilməmiş hissəsindən, cərimə cəzasına məhkum olunan 23 nəfər isə cəzadan azad ediliblər.



https://fliphtml5.com/ninpc/iuqd 13/54

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5



**Martın 19-da Ədliyyə Nazirliyi tərəfindən "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" ölkə Prezidentinin Sərəncamı uğurla icra olunub.**

Ölkə ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanan əfv Sərəncamının icrası Milli Məclisin deputatlarının, Ombudsman Aparatının, ədliyyə naziri yanında fəaliyyət göstərən İctimai Komitənin, habelə kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə mütəşəkkil qaydada həyata keçirilib.

Nazirliyin, o cümlədən penitensiar və probasiya xidmətlərinin məsul əməkdaşları Sərəncamın icrasını vaxtında və yüksək səviyyədə təmin ediblər. Prezident tərəfindən əfv olunmuş şəxslər Penitensiar Xidmətin tabeliyindəki cəzaçəkmə müəssisələrindən azadlığa buraxılıblar. Azadlıqdan məhrumetməyə alternativ cəzalara məhkum olunmuş şəxslər isə cəzadan azad ediliblər.

Əfv edilmiş şəxslərə, o cümlədən yeniyetmələr, qadınlar, ahıllar və digər məhkumlara azad olunmaları barədə sənədlər təqdim olunub.

Bununla əlaqədar keçirilən tədbirlərdə çıxış edənlər Novruz bayramı münasibətilə məhkumlara və onların ailə üzvlərinə təbriklərini çatdırıb, bu humanist aktın əhəmiyyəti barədə danışıblar. Vurğulanıb ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin humanizm ənənələrini davam etdirən Prezident İlham Əliyevin milli həmrəyliyə istiqamətlənmiş növbəti addımıdır.

Azadlığa çıxan şəxslər və onları qarşılamağa gələn ailə üzvləri, yaxınları göstərdiyi humanistliyə, mərhəmətliyə və Novruz bayramı ərəfəsində imzalanan əfv Sərəncamına görə dövlətimizin başçısı İlham Əliyevə və respublikamızın Birinci vitse-prezidenti Mehriban Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Cəzadan azad olunan şəxslər müstəqil dövlətimizin inkişafı yolunda fəaliyyət göstərəcəklərini qeyd ediblər.

Tədbirlərdə əfv olunan şəxslərin bu humanist aktdan düzgün nəticə çıxaracaqlarına, Azərbaycan dövlətinin qanunlarına əməl edəcəklərinə və layiqli vətəndaş olacaqlarına əminlik ifadə edilib.

# 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik

Hörmətli xanımlar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi qəlbdən təbrik edir, hamınıza cansağlığı, səadət və gələcək işlərinizdə uğurlar arzulayıram.

Azərbaycan qadınları milli varlığımızı özündə əks etdirən mədəni dəyərlərimizin əsrlərdən bəri bir bütöv halında qorunub saxlanılmasında misilsiz xidmətlər göstərmiş və həmişə cəmiyyətimizin etibarlı mənəvi dayağı olmuşlar. Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, onlar milli dövlət quruculuğu işinin fəal iştirakçıları kimi ölkəmizin sosial-iqtisadi, mədəni və elmi potensialının artırılması üçün qüvvələrini əsirgəmədən tariximizdə dərin iz qoyan fədakar, mübariz və məğrur sələflərindən aldıqları tükənməz mənəvi güc sayəsində bütün sınaqları dəf etmiş, öhdələrinə düşən vəzifələri şərəflə yerinə yetirmişlər.

Azərbaycan qadını mərdlik və mətanət nümayiş etdirərək, dualarla cəbhəyə göndərib qələbə xəbəri ilə yolunu




gözlədikləri və yurdumuzun hər qarışını canından əziz bilən



https://fliphtml5.com/ninpc/iuqd 14/54

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5



bir nəsil yetişdirmişdir. Dövlətçiliyimizə ən böyük töhfə də, heç şübhəsiz, qırx dörd günlük müqəddəs Vətən müharibəsindəki qəhrəmanlığı və şücaəti əsla yaddaşlardan silinməyəcək bu gənc nəsildir. Gözünü açıb Azərbaycanı azad və müstəqil görmüş həmin rəşadətli nəsildir ki, ümidləri doğruldaraq ədalətin bərpa edilməsində, uzun həsrətdən sonra Qarabağın Ana Vətənə qovuşmasında və məğrur xalqımıza hüdudsuz Zəfər sevincinin yaşadılmasında müstəsna payı vardır.

Mən torpaqlarımızın müdafiəsi zamanı canından keçmiş igid oğullarımızın xatirəsini bir daha ehtiramla yad edir, şəhid analarına və xanımlarına, döyüşlərdə sağlamlığını itirmiş hərbçilərimizin ömür-gün yoldaşlarına, Vətənimiz üçün layiqli övladlar böyüdən əsgər analarına ən xoş arzularımı çatdırıram.

İnanıram ki, qurub-yaratmaq əzmi və sosial-mədəni fəallığı ilə seçilən zəngin mənəviyyatlı Azərbaycan qadını cəmiyyətimizin həyatına bundan sonra da yüksək dəyərlər qazandıracaq, bizi qarşıda gözləyən nəhəng quruculuq dövründəki nailiyyətləri ilə müstəqillik salnaməmizə yeni parlaq səhifələr yazacaqdır.

Dərin hörmətlə,

**İlham Əliyev**
**Azərbaycan**
**Respublikasının Prezidenti**

*Bakı şəhəri, 6 mart 2021-ci il*

## Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi əziz Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza cansağlığı və səadət arzulayıram.

Novruz bayramı bizə ulu əcdadlarımızın təbiətin əbədi nizamına ehtiramını ifadə edən müqəddəs yadigarıdır. Bu bayram Azərbaycan xalqının qədim və zəngin dünyagörüşünün, gələcəyə nikbin baxışının, bütövlükdə milli varlığımızın dolğun təcəssümü olub, mədəni sərvətlər xəzinəmizdə müstəsna yer tutur. Yad təsirlərdən qoruyaraq layiqincə yaşatdığımız Novruz ənənələri çoxəsrlik keçmişinə daim ehtiramla yanaşan xalqımızın, eyni zamanda, bəşər mədəniyyətinə töhfəsidir.

Yaz bayramının Odlar diyarına builki gəlişi xüsusən əlamətdardır. Şadam ki, müstəqilliyimizin bu baharına dövlətçilik tariximizdə qızıl hərflərlə əbədi qalacaq və həyatımıza hələ yeni-yeni nailiyyətlər bəxş edəcək parlaq Qələbə ilə qədəm qoymuşuq. Haqq işi uğrunda mübarizə duyğusundan aldığımız misilsiz mənəvi güclə biz sınaq anında yumruq kimi birləşərək əzəli torpaqlarımıza xaincəsinə uzanan əlləri kəsmiş, yurdumuzu bədxah düşməndən təmizləmiş və ədaləti qanımız bahasına bərpa etmişik. Ruhumuzun yenilməzliyinin təntənəsinə çevrilən və bizi dünyaya məğrur millət olaraq tanıdan şanlı Zəfərimiz Azərbaycana əbədi bahar gətirmişdir.




Xalqımızın qalibiyyət ovqatını bütün qəlbi ilə yaşadığı bu bayram günlərində bir daha Vətənimizin ərazi bütövlüyü naminə canlarını fəda etmiş qəhrəman övladlarımıza rəhmət diləyir, onların əziz xatirəsini dərin ehtiramla yad edirik.

İrəlidə bizi işğaldan azad olunmuş yurd yerlərimizdə nəhəng quruculuq işləri gözləyir. İnanıram ki, yaz fəslinin qurub-yaratmaq əzmimizi artıran yeniləşdirici ab-havası ilə həmahəng birlik və həmrəylik nümayiş etdirəcək, böyük qayıdış planımızı sülh və əmin-amanlıq şəraitində uğurla gerçəkləşdirəcək, doğma Qarabağı qısa müddətdə dirçəldəcəyik.

Hamınıza bahar əhval-ruhiyyəsi arzu edirəm. Bu bayram öz gəlişi ilə evinizə, ocağınıza bol ruzi-bərəkət və firavanlıq gətirsin!

Novruz bayramınız mübarək olsun!

**İlham Əliyev**
**Azərbaycan**
**Respublikasının Prezidenti**

*Bakı şəhəri, 18 mart 2021-ci il*



https://fliphtml5.com/ninpc/iuqd 15/54

# Birinci vitse-prezident Mehriban Əliyeva Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarını təbrik edib

Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə paylaşım edib.

Paylaşımda deyilir:

"Əziz qadınlar!

Beynəlxalq Qadınlar Günü münasibətilə sizin hamınızı səmimi qəlbdən təbrik edirəm! Siz zəriflik, sədaqət, xeyirxahlıq, mənəvi saflıq, gözəllik və ülvilik rəmzi olan "qadın" sözünün ucalığını ləyaqətlə qoruyursunuz.

Vətənimiz üçün layiqli oğullar tərbiyə etmiş analara ən xoş arzularımı çatdırıram! Vətən müharibəsi günlərində siz misli görünməmiş mətanət, fədakarlıq və möhkəm iradə nümayiş etdirdiniz. Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəmanların analarının qarşısında baş əyirəm.



Sizin hər birinizə möhkəm cansağlığı və ailə səadəti arzulayıram! Uca Tanrı sizi və sizin doğmalarınızı qorusun!".

# Birinci vitse-prezident Mehriban Əliyeva Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Novruz bayramı münasibətilə xalqımızı təbrik edib.

Təbrikdə deyilir:

"Əziz həmvətənlər!

Novruz bayramı münasibətilə sizi səmimi qəlbdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, gözəl əhval-ruhiyyə, bol sevincli və xoşbəxt anlar arzulayıram. Təbriklərə və xoş arzulara görə hər kəsə minnətdaram. Sevginizə, səmimiyyətinizə, etimadınıza, hörmət və diqqətinizə görə çox sağ olun! Qoy təbiətin oyanması və yenilənməsinin rəmzi olan bu bayram hər birinizin ocağına sağlıq, qarşılıqlı anlaşma və əmin-amanlıq gətirsin! Allah Vətən uğrunda həlak olmuş bütün şəhidlərimizə rəhmət eləsin, onların doğma və yaxınlarına səbir versin. Uca Tanrı mərhəmətini xalqımızdan heç zaman əsirgəməsin!

Dərin hörmət və sevgilərlə,

Sizin MEHRİBAN".

# Vətən müharibəsində iştirak etmiş ədliyyə işçiləri ilə görüş

**Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad olunması uğrunda aparılan və Böyük Qələbə ilə başa çatan Vətən müharibəsində xalqımızın və ordumuzun zəfər salnaməsi yazıldı.**







Müharibənin ilk günlərindən Ədliyyə Nazirliyinin əməkdaşları, məhkəmə aparatı işçiləri və onların ailə üzvləri, habelə ədliyyə könüllüləri yüksək vətənpərvərlik hissi ilə cəbhəyə yollanaraq döyüşlərdə iştirak ediblər. Hərbi əməliyyatlarda mərdlik və rəşadət göstərmiş nazirliyin aparatının bir əməkdaşı, həmçinin 4 ədliyyə işçisinin ailə üzvü şəhid olub.

Martın 4-də qlobal pandemiya ilə əlaqədar xüsusi karantin rejiminin tələbləri ciddi gözlənilməklə Vətən müharibəsində iştirak etmiş ədliyyə işçiləri və könüllüləri ilə ədliyyə naziri Fikrət Məmmədovun görüşü keçirilib.

Görüşdən əvvəl müharibə iştirakçıları Fəxri Xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib, abidəsi önünə gül dəstələri qoyublar. Şəhidlər xiyabanında xalqımızın azadlığı və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəman övladlarımızın, həmçinin Vətən müharibəsində şəhid olmuş ədliyyə işçisi Ruhin Xəlilovun əziz xatirəsi anılıb.

Nazirlikdə keçirilən tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Vətən müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Çıxış edən ədliyyə naziri Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin müdrik və yenilməz sərkərdəliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış Böyük Qələbə münasibətilə iştirakçıları təbrik edib, əsl vətəndaşlıq nümunəsi göstərərək döyüşlərdə şücaət və fədakarlıq nümayiş etdirdiklərinə görə nazirliyin kollektivi adından təşəkkürünü ifadə edib.

Bildirib ki, ölkəmizin hərbi-siyasi uğuru, ordumuzun qəhrəmanlığı sayəsində, şəhidlərimizin qanı və canı bahasına 30 il düşmən əsarətində qalan torpaqlarımız işğaldan azad edilib, ərazi bütövlüyümüz təmin olunub.

Hazırda azad olunan ərazilərin bərpa olunması ilə bağlı ölkə Prezidentinin rəhbərliyi ilə nəhəng quruculuq işlərinin həyata keçirildiyi qeyd olunaraq dövlət başçısının və respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın həmin bölgəyə müntəzəm səfərlərinin doğma torpaqlarımızın dirçəldilməsinin və böyük qayıdışın təminatı olduğu vurğu-

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5









lanıb.

Eyni zamanda, Vətən müharibəsi iştirakçılarının sosial müdafiəsinin və rifahının yaxşılaşdırılması ilə bağlı görülən tədbirlərdən bəhs olunaraq şəhid ailələrinin və yaralı hərbçilərimizin hərtərəfli dövlət qayğısı ilə əhatə olunduğu qeyd edilib.

Bildirilib ki, müharibə başlanan andan ədliyyə işçiləri də döyüşlərdə, o cümlədən könüllü iştirak edərək fədakar xidmətlər göstərib, həmçinin ordumuzla həmrəylik nümayiş etdirərək, hərbçilərimizə, yaralananlara və şəhid ailələrinə öz dəstəyini əsirgəməyib, Silahlı Qüvvələrə Yardım Fonduna və "YAŞAT" Fonduna əmək haqlarından könüllü vəsaitlər köçürüblər. Eyni zamanda, nazirliyin tibb xidmətinin həkimləri müharibə dövründə yaralananlara zəruri tibbi yardım göstərib, ədliyyə və məhkəmə orqanlarında qanvermə aksiyaları keçirilib, nazirliyin əməkdaşları tərəfindən döyüşlərdə yaralanaraq hərbi hospitallarda müalicə alan hərbçilərimizə mütəmadi baş çəkilib və sovqatlar təqdim olunub.

Nazirlik tərəfindən həmçinin, döyüşlərdə iştirak etmiş əməkdaşların, o cümlədən şəhid ailələrinin qayğıları ilə mütəmadi maraqlanıldığı, onların problemlərinin daim diqqətdə saxlanılaraq zəruri köməklik göstərildiyi bildirilib.

Tədbirdə ölkəmizin ərazi bütövlüyü uğrunda aparılan döyüşlərdə mərdliklə iştirak etmiş, vəzifə borclarını şərəflə yerinə yetirərək şəxsi igidlik göstərdiklərinə görə ədliyyə işçilərinin yüksək dövlət təltiflərinə layiq görülməsi xüsusilə qeyd edilərək ölkə başçısına dərin minnətdarlıq ifadə olunub.

Əməkdaşlar döyüş xatirələrini bölüşərək torpaqlarımızın azad olunması uğrunda Vətən müharibəsində iştirak etmələrindən böyük qürur hissi keçirdiklərini bildirib, hərbçilərimizə istər müharibə, istərsə də sonrakı dövrdə yüksək diqqət və qayğı ilə yanaşıldığını vurğulayıblar. Qeyd ediblər ki, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşərək Vətənimizin müdafiəsi və tərəqqisi naminə dövlə-



https://fliphtml5.com/ninpc/iuqd 18/54

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5



timizə və xalqımıza layiqincə xidmət etməyi özlərinin vəzifə və vətəndaşlıq borcu sayırlar.

Görüşdə ədliyyə nazirinin Vətən müharibəsində iştirak etmiş ədliyyə işçiləri ilə bağlı Əmri elan edilib və mükafatlandırılmış müharibə iştirakçılarına təltiflər təqdim olunub.

İştirakçılar nazirliyin Heydər Əliyev və Ədliyyə tarixi muzeyləri, o cümlədən yeni yaradılmış Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış Böyük Qələbəyə həsr olunan xüsusi guşə ilə tanış olublar.

# Şəhid ədliyyə işçisinin xatirəsi anılıb

**Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsi iştirakçılarına hərtərəfli dövlət qayğısı göstərilir, şəhid ailələrinin və yaralı hərbçilərimizin sosial müdafiəsinin və rifahının yaxşılaşdırılması ilə bağlı məqsədyönlü tədbirlər görülür.**

Bu tədbirlər çərçivəsində Ədliyyə Nazirliyi tərəfindən Vətən müharibəsində iştirak etmiş ədliyyə işçilərinin qayğıları daim diqqətdə saxlanılır, zəruri köməklik göstərilir.

Martın 13-ü Vətən Müharibəsində şəhid olmuş Ədliyyə Nazirliyinin əməkdaşı Ruhin Xəlilovun doğum günüdür.

Bununla bağlı nazirliyin rəhbərliyi və kollektivi İkinci Fəxri xiyabanda şəhidin məzarını ziyarət edərək, xatirəsini ehtiramla yad etmişlər. Həmçinin, ailəsinə baş çəkilmiş, Ruhin Xəlilov barədə xatirələrini bölüşmüşlər.

Ruhin Müzəffər oğlu Xəlilov 1987-ci il martın 13-də Cəbrayıl rayonunun Məzrə kəndində anadan olmuş, erməni silahlı qüvvələri tərəfindən həmin rayonun işğalı nəticəsində 1993-cü ilin avqust ayında məcburi köçkün düşmüş, ailəsi ilə birgə Abşeron rayonunda məskunlaşmışdır.

Hüquqşünaslıq ixtisasına yiyələndikdən sonra ədliyyə orqanlarına qulluğa qəbul olunan Ruhin Xəlilov bir müddət icra məmuru vəzifəsində çalışmış, nümunəvi fəaliyyəti ilə fərqlənərək sonradan Ədliyyə Nazirliyinin aparatına irəli çəkilmişdir.

Xidməti fəaliyyəti dövründə zəhmətsevərliyi, davranışı və nizam-intizamı ilə kollektivin rəğbətini qazanan R.Xəlilov Vətən müharibəsinin ilk günlərindən könüllü olaraq cəbhəyə yollanmışdır.

Torpaqlarımızın azad olunması uğrunda aparılan müharibədə fədakarcasına iştirak edən Ruhin Xəlilov Qubadlı rayonu ətrafında gedən döyüşlərdə mərdlik və şücaət göstərərək oktyabrın 21-də şəhid olmuşdur.




Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə R.Xəlilov ölümündən sonra "Vətən uğrunda" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Nazirlik üzrə əmrlə ədliyyə orqanlarında xidməti vəzifələrini layiqincə və vicdanla yerinə yetirdiyinə, habelə əsl vətəndaşlıq nümunəsi və fədakarlıq göstərdiyinə görə R.Xəlilova ölümündən sonra "Fəxri ədliyyə işçisi" adı verilmişdir.

Şəhid Ruhin Xəlilovun əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

Allah rəhmət eləsin!



https://fliphtml5.com/ninpc/iuqd 19/54

# BMT-nin mötəbər Konqresində Ermənistanın hərbi cinayətləri ifşa edildi

**Bu il martın 7-dən 12-dək Yaponiyanın Kioto şəhərində BMT-nin Cinayətkarlığın qarşısının alınması və cinayət ədliyyəsi üzrə 14-cü Konqresi keçirilib.**

Beş ildən bir keçirilən bu mötəbər forumun işinə BMT-nin üzv olan ölkələrindən dövlət və hökumət başçıları, ədliyyə və daxili işlər nazirləri, baş prokurorlar, digər hökumət üzvləri, nüfuzlu beynəlxalq təşkilatların rəhbər vəzifəli şəxsləri bilavasitə və ya onlayn qatılıblar.

Tədbirdə Azərbaycanı ədliyyə naziri Fikrət Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib. Nümayəndə heyətinin tərkibinə Azərbaycan Respublikasının Yaponiyadakı səfiri Gürsəl İsmayılzadə, Ədliyyə, Xarici və Daxili İşlər nazirliklərinin, Baş Prokurorluğun məsul şəxsləri daxil ediliblər.

Qlobal səviyyədə cinayətkarlığa qarşı mübarizə siyasətini müəyyən edən və əsas təşkilatçısı Yaponiyanın Ədliyyə Nazirliyi olan bu tədbirin təntənəli açılış mərasimində Yaponiyanın şahzadəsi Hisako Taka-




BMT-nin Cinayətkarlığın qarşısının alınması və cinayət ədliyyəsi üzrə 14-cü Konqresinin açılışında Yaponiyanın şəhzadəsi Hisako Takamodonun və Baş naziri Yoşihide Suqanın çıxışı



10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5



modo və Baş naziri Yoşihide Suqa, BMT-nin baş katibi Antonio Quterreş, Baş Assambleyasının və İqtisadi və Sosial Şurasının sədrləri, habelə ev sahibliyi edən ölkənin ədliyyə naziri və baş prokuroru çıxış ediblər.

Açılış mərasimindən sonra yüksək səviyyəli plenar sessiyanın iclasları başlanılıb. İlk iclasda birinci bilavasitə çıxış edən respublikamızın ədliyyə naziri Azərbaycan və həmçinin, ölkəmizin sədrlik etdiyi Qoşulmama Hərəkətına üzv olan 120 dövlət adından nitqlər söyləyib.

BMT-nin saytında canlı yayımlanmış çıxışda ədliyyə naziri ölkəmizdə dövlət başçısının rəhbərliyi ilə görülən cinayətkarlığın qarşısının alınması üzrə qəti tədbirləri, ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə xaricdə təqdir olunan genişmiqyaslı islahatları, o cümlədən elektron məhkəmənin tətbiqini, göstərilən sahələrdə Azərbaycanın yüksək beynəlxalq reytinqlərə malik olmasını, ölkəmizdə cəza siyasətinin humanistləşdirilməsi üzrə atılan mühüm addımları, korrupsiya ilə mübarizə üzrə ciddi işləri vurğulayıb, o cümlədən xaricdə böyük maraqla qarşılanan Azərbaycan brendi olan "ASAN xidmət"in səmərəli fəaliyyətindən danışıb.

Çıxışda Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə əzəli torpaqlarımızın 30 illik erməni işğalından azad olunduğu, təcavüzkar düşmənin törətdiyi müharibə cinayətləri, xüsusilə Ermənistan tərəfindən beynəlxalq normalara zidd olaraq xarici ölkələrdən olan terrorçu muzdluların cəlb edilməsi, erməni diasporu tərəfindən aldatma və digər qanunsuz yollarla silah və sursatların alınması və humanitar yardım altında münaqişə zonasına mülki aviaşirkətlər vasitəsilə qanunsuz göndərilməsi tədbir iştirakçılarının diqqətinə çatdırılıb.



Konqresinin açılışında BMT-nin baş katibi Antonio Quterreşin çıxışı

İşğal dövründə torpaqlarımızın yerlə-yeksan edildiyi, bütün infrastrukturun büsbütün viran olunduğu, o cümlədən tarixi, mədəni və dini abidələrin məhv olunması ya da talanması faktları vurğulanıb, həmin ərazilərin qeyri-qanuni iqtisadi fəaliyyət, narkotrafik və digər cinayət əməlləri üçün istifadə olunması qeyd edilib.

Konqres iştirakçılarının və bütün dünya hüquq ictimaiyyətinin diqqəti Ermənistanın bu cinayət əməllərinə cəlb olunmuş, sülh üçün təhlükə olan bu əməlləri törədənlərin məsuliyyətə cəlb edilməsi ilə bağlı bütün dövlətlərə çağırış olunub.

Çıxışın ingilis və rus dillərində olan mətnləri həmçinin tədbir iştirakçıları arasında yayımlanıb.

Qoşulmama Hərəkatı adından tədbirdə çıxış edilərək Kioto Konqresinin gündəliyindən irəli gələn məsələlərlə bağlı Hərəkatın mövqeyini əks etdirən bəyanat barədə məlumat verilib. Qoşulmama Hərəkatının bütün üzv dövlətlərinin razılığı ilə qəbul edilərək yayımlanmış bəyanatda Azərbaycan tərəfinin təkliflərinə uyğun olaraq xeyriyyə təşkilatlarından terrorçuluğun maliyyələşdirilməsi məqsədilə istifadə edilməsinin qarşısının alınması, münaqişə dövründə vandalizm aktları, mədəni irsin dağıdılması və ya talanması ilə bağlı böyük narahatlıq ifadə olunaraq bu halların aradan qaldırılmasına, qanunsuz çıxarılmış mədəni mülkiyyətin qanuni sahibinə geri qaytarılması ilə bağlı çağırışlar təsbit olunub.

Konqres iştirakçılarının diqqətini cəlb edən bu əsaslı ittihamlardan yayınmaq istəyən Ermənistan tərəfi ölkəmiz və Türkiyə ilə bağlı uydurma fikirlər söyləyib, lakin Azərbaycan nümayəndə heyətinin tutarlı dəlilləri ilə onların yalanları tam ifşa olunub.

Elə həmin iclasda qlobal cinayətkarlıqla mübarizə üzrə səylərin gücləndirilməsinə yönəlmiş Kioto Bəyannaməsi qəbul olunub. Bu 5 illik proqram xarakterli mühüm sənəddə Azərbaycanın təkliflərinə əsasən milli maraqlarımıza cavab verən müddəalar tam əksini tapıb.



https://fliphtml5.com/ninpc/iuqd 21/54

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5






*BMT-nin Cinayətkarlığın qarşısının alınması və cinayət ədliyyəsi üzrə 14-cü Konqresində Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Məmmədovun ingilis dilində çıxışının Azərbaycan dilinə tərcümə olunmuş mətni*
*Yaponiya, Kioto, 7-12 mart 2021-ci il*

# Cinayətkarlığın qarşısının alınması, cinayət ədliyyəsi və qanunun aliliyi üzrə tədbirlərin gücləndirilməsi: 2030-cu ilədək Gündəliyin həyata keçirilməsinə doğru




Hörmətli xanım sədr,
Hörmətli həmkarlar,
Xanımlar və cənablar!

İlk növbədə, ötən 50 ildən sonra və bütün dünya üçün indiki çətin pandemiya dövründə qədim Kioto şəhərində yenidən keçirilən Konqresin yüksək səviyyədə təşkil olunmasına və isti qonaqpərvərliyə görə Yaponiya Hökumətinə səmimi minnətdarlığımı bildirirəm.

Doha Bəyannaməsində qeyd olunduğu kimi, qanunun aliliyi və dayanıqlı inkişaf ayrılmaz şəkildə bir-birinə bağlıdır və bir-birini gücləndirir. Xüsusilə pandemiya şəraitində, BMT-nin Baş katibi Antonio Quterreşin təbirincə desək, "COVID-19 böhranı bizi 2030-cu ilədək Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olmaqdan uzaqlaşdırır" ki, bu da cinayət mühakimə sisteminin səmərəliliyinin artırılması və cinayətkarlığın qarşısının alınması üzrə tədbirlərin əhəmiyyətini daha da artırır.

Bunu yaxşı anlayaraq cinayətkarlıqla mübarizə Azərbaycanda dövlət siyasətinin prioritetlərindəndir. Doha Konqresindən etibarən, ölkə Prezidenti cənab İlham Əliyevin qəti siya-



https://fliphtml5.com/ninpc/iuqd 22/54

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5



si iradəsi ilə DİM-in 16-cı hədəfinə uyğun olaraq, korrupsiya, çirkli pulların yuyulması, insan alveri, terrorizmin maliyyələşdirilməsi, narkotik vasitələrin dövriyyəsinə qarşı mübarizə strategiyaları və hərtərəfli fəaliyyət planları qəbul edilmiş və sevindirici haldır ki, bütün bu tədbirlər müsbət nəticələr vermişdir.

Belə ki, Davos Forumunun hesabatına görə, ölkəmiz mütəşəkkil cinayətkarlıqla mübarizə göstəricisi üzrə dünyada 18-ci yerdədir, ümumi cinayət indeksi isə dünyada orta rəqəmdən 1,5 dəfə azdır.

Bununla yanaşı, dövlət başçısının təşəbbüsü ilə 2017-ci ildə cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı qlobal islahatlara başlanılmış, nəticədə cinayət qanunvericiliyinə 500-ə yaxın dəyişiklik edilmiş, o cümlədən onlarla cinayət əməlləri dekriminallaşdırılmış, yeni alternativ cəza növləri təsbit olunmuşdur ki, bununla da demək olar, hər yeddinci məhkum azadlığa çıxmış və ya cəzası yüngülləşdirilmişdir.

Probasiya xidmətinin yaradılması və elektron qolbaqların geniş tətbiqi alternativ cəzaların daha səmərəli icrasına xidmət etmişdir. Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə institutunun tətbiqi genişləndirilmişdir ki, vətəndaş cəmiyyəti də bu prosesə fəal cəlb olunmuşdur. Həbs qətimkan tədbirlərinə daha düşünülmüş yanaşma onların sayının nəzərəçarpacaq dərəcədə azalmasına səbəb olmuşdur.

Cəza siyasətinin humanistləşməsi məsələləri pandemiya dövründə xüsusilə aktuallaşmışdır. Təsadüfi deyil ki, yaşı 65-dən yuxarı olan məhkumların böyük əksəriyyəti ölkə Prezidentinin Sərəncamı ilə əfv olunaraq azadlığa buraxılmışdır.

Bütün bu tədbirlər Konqresin gündəliyində duran məhkumların reabilitasiyasına və cəmiyyətə yenidən inteqrasiyasına xidmət edir.

DİM-in hər kəsin sağlam yaşayışının təmin olunması ilə bağlı 3-cü hədəfi məhkumları da əhatə etdiyindən bu məsələ daim nəzarətdə saxlanılır. Ötən 25 ildə cəzaçəkmə müəssisələrində ölümün sayı 15 dəfə, vərəmdən ölüm isə 200 dəfə azalmışdır ki, bu xəstəlikdən sağalma faizi Ümumdünya Səhiyyə Təşkilatının standartlarından xeyli yüksəkdir. Təsadüfi deyil ki, bu sahədə müsbət təcrübəmizlə artıq onlarla ölkənin nümayəndələri tanış olaraq bəhrələnmişlər.

Konqresin sənədlərində vurğulandığı kimi, ədalət mühakiməsinin səmərəliliyi və məhkəməyə əlçatanlıq dayanıqlı inkişafın əsas şərtlərindən biridir. Ölkə Prezidentinin güclü siyasi iradəsi sayəsində və rəhbərliyi ilə həyata keçirilən məhkəmə islahatları nəticəsində beynəlxalq aləmdə təqdir olunan nailiyyətlər qazanılmışdır.

Belə ki, ədalət mühakiməsinə əlçatanlığın yaxşılaşdırılması məqsədilə ixtisaslaşmış regional məhkəmələrin şəbəkəsi genişləndirilmiş, hakimlərin sayı 1/3-i qədər artırılmışdır. Dünya Bankı ilə birgə həyata keçirilən layihə çərçivəsində məhkəmə infrastrukturu müasirləşdirilərək yüksək texnoloji (hi-tech) məhkəmələrə çevrilir. "Elektron məhkəmə" informasiya sistemi getdikcə daha geniş tətbiq olunur və hətta bəzi işlərdə süni intellektdən istifadə edilir.

Həmçinin məhkəmə sisteminin insanlara daha əlverişli və əlçatan olması üçün məhkəmələrin vahid internet portalı və mobil məhkəmə tətbiqi yaradılmışdır ki, bu da vətəndaşların müraciət imkanlarını asanlaşdırmış, dövlət rüsumunu elektron qaydada ödəməyə, məhkəmə işlərinin gedişatını onlayn izləməyə və s. imkan vermişdir. Pandemiya dövründə qanunvericiliyə dəyişikliklərin edilməsi məhkəmə iclaslarının keçirilməsində videokonfransın tətbiqini mümkün etmişdir.

Dayanıqlı İnkişaf Məqsədlərinin şəffaf qurumların yaradılması və korrupsiyanın qarşısının alınması ilə bağlı hədəfinə nail olunmasına yönələn mühüm addımlardan biri ölkəmizin "ixrac edilən" brendinə çevrilmiş "ASAN xidmət"in yaradılması olmuşdur. "Bir qapı" prinsipi tətbiq olunmaqla bir binada təxminən 40 dövlət



https://fliphtml5.com/ninpc/iuqd 23/54

qurumu tərəfindən 300-dən artıq müxtəlif xidmətlərin göstərilməsi məişət korrupsiyasına son qoymuşdur. Bunun əyani təzahürüdür ki, "ASAN xidmət" BMT-nin mükafatları ilə təltif olunmuş və bu sahədə təcrübəmizdən artıq digər dövlətlər bəhrələnmişlər.

Cinayətkarlıqla mübarizədə beynəlxalq əməkdaşlıq hər kəs üçün prioritetdir. Biz əməkdaşlığımızın, xüsusilə cinayətkarların ekstradisiyası sahəsində qarşılıqlı fəaliyyətin coğrafiyasını xeyli genişləndirmişik. Xoş niyyət göstərərək, müqavilə olmadığı təqdirdə də əməkdaşlıq həyata keçiririk və pandemiya dövründə xarici həmkarlarımızla qarşılıqlı şəkildə anlaşaraq bu sahədə əlaqələrimiz onlayn platformaya keçmişdir.

Hörmətli həmkarlar,

Bildiyiniz kimi, bir çoxumuzun işlənib hazırlanmasında fəal iştirak etdiyi Kioto Bəyannaməsində xarici terrorçu döyüşçülərin cəlb edilməsi, istifadəsi və maliyyələşdirilməsi təhlükəsi xüsusilə vurğulanır. Bu da Baş Assambleyanın sənədlərinə görə, BMT Nizamnaməsinin məqsəd və prinsiplərini pozur. Təəssüf ki, ölkəmiz bu təhdidin təhlükəsini birbaşa yaşamışdır. 30 ilə yaxın Azərbaycan ərazisinin 20%-i Ermənistanın işğalı altında qalmışdır. Ötən ilin sentyabrında Ermənistanın hərbi təxribatları nəticəsində münaqişənin eskalasiyası baş vermişdir. Eyni zamanda, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini işğal altında saxlamaq üçün Ermənistan beynəlxalq normalara zidd olaraq, döyüşlərə müxtəlif ölkələrdən olan terrorçu muzdlular cəlb etmişdir.

Qeyd olunanlarla əlaqədar, Azərbaycan bu əməliyyatlarda vətəndaşları muzdlu döyüşçü kimi iştirak etmiş dövlətləri onları ifşa etməyə və ədalət mühakiməsinə cəlb etmək üçün bütün lazımi tədbirləri görməyə çağırır. Çünki BMT və ATƏT sənədlərinə görə, onlar nəinki münaqişə zonası, həmçinin yaşadıqları və hətta tranzit ölkələr üçün ciddi təhlükə yaradırlar.

Eyni zamanda, erməni diasporunun terrorizmi maliyyələşdirməsi faktları da ifşa olunmuşdur. Belə ki, xeyriyyəçi təşkilatlar başqa ölkələrdə aldatma yolu ilə humanitar yardım adı altında vergi ödəyicilərindən pul toplayaraq silah və sursat alıb münaqişə bölgəsinə qanunsuz göndərmişlər.

Bu cür qanunsuz fəaliyyətin yaratdığı ciddi təhlükənin qarşısını almaq üçün bütün dövlətləri bu kimi təşkilatların fəaliyyətinə diqqətli və ayıq olmağa çağırırıq.

Xoşbəxtlikdən, uzun illərdir terrorçular üçün sığınacaq olan və narkotrafik üçün istifadə edilən işğal olunmuş ərazilərimiz Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müdrik və yenilməz sərkərdəliyi ilə müzəffər ordumuz tərəfindən azad edildi və bununla "boz zona" adlandırılan bölgədə cinayət, o cümlədən qeyri-qanuni iqtisadi fəaliyyətə son qoyuldu.

Onu da vurğulamaq istərdim ki, işğal dövründə Azərbaycanın tarix, mədəniyyət abidələri və ziyarətgahları daxil olmaqla bütün infrastrukturu büsbütün viran edilmiş və ya talan olunmuş, ölkəmizin mədəni irsinin dəyərli nümunələri qanunsuz olaraq əlavə gəlir əldə etmək məqsədilə Ermənistana və ya üçüncü ölkələrə aparılmışdır.

Bu baxımdan, Kioto Bəyannaməsinin mədəni sərvətlərin qanunsuz dövriyyəsinə qarşı milli və beynəlxalq səylərin gücləndirilməsini tələb edən müddəalarının icrasına xüsusi diqqət yetirilməsinə çağırırıq.

Sonda əminliyimi ifadə edirəm ki, Konqresimiz cinayətkarlıqla mübarizə sahəsində ən yaxşı təcrübələrin mübadiləsi üçün mükəmməl platforma olacaq və BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasına əlavə təkan verəcəkdir.

Diqqətiniz üçün minnətdaram.

# Azərbaycan və Yaponiya ədliyyə nazirlərinin görüşü keçirilib






**Yaponiyanın Kioto şəhərində keçirilən BMT-nin Cinayətkarlığın qarşısının alınması və cinayət ədliyyəsi üzrə 14-cü Konqresində iştirak edən Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədov Yaponiyanın ədliyyə naziri xanım Yoko Kamikava ilə görüşüb.**

Ölkəmizin ədliyyə naziri həmkarını cinayətkarlıqla mübarizəyə həsr olunmuş bu mötəbər forumun pandemiya şəraitində yüksək səviyyədə keçirilməsi və Konqresin prezidenti seçilməsi münasibətilə təbrik edib, habelə qlobal cinayətkarlıqla mübarizə üzrə bütün dövlətlər üçün yol xəritəsi olan və Azərbaycanın milli maraqlarını əks etdirən Kioto Bəyannaməsinin qəbul olunmasının mühüm əhəmiyyətini qeyd edib.

Azərbaycan ədliyyə nazirinin Konqresdə bilavasitə iştirakını yüksək qiymətləndirən Y.Kamikava iki ölkə arasında dostluq əlaqələrinin olduğunu, 30 il ərzində əməkdaşlıq münasibətlərinin uğurlu inkişafını qeyd edib, hüquqi sahədə qarşılıqlı fəaliyyətin genişləndirilməsində maraqlı olduğunu söyləyib.

Nazir F.Məmmədov dövlətlərimiz arasında müxtəlif sahələrdə əməkdaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini qeyd edib, ədliyyə orqanları arasında qarşılıqlı fəaliyyətin genişləndirilməsi üçün perspektivlərin olduğunu deyib, bu sahədə konkret təkliflər irəli sürüb.

Eyni zamanda, Azərbaycanın məhkəmə-hüquq sahəsində beynəlxalq aləmdə təqdir edilən islahatları barədə məlumat verilməklə hüquqi sahədə təcrübə mübadiləsinin hər iki tərəf üçün faydalı olacağı qeyd olunub, iki nazirlik arasında əməkdaşlığa dair sənədin hazırlanması barədə razılığa gəlinib.

Nazir həmçinin, Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində ölkəmizin böyük Qələbəsini, torpaqlarımızın 30 illik erməni işğalından azad olunaraq ədalətin bərpa edildiyini vurğulayıb.

İşğal dövründə torpaqlarımızın yerlə-yeksan edildiyi, bütün infrastrukturun büsbütün viran olunduğu, o cümlədən tarixi, mədəni və dini abidələrin məhv olunması ya da talanması faktları xüsusi qeyd olunub.

Məcburi köçkün olmuş 750 min soydaşımızın öz dədə-baba yurdlarına qayıtması üçün ərazilərimizin bərpası üzrə görülən genişmiqyaslı işlərdən, o cümlədən "ağıllı kənd"lərin və yaşıl enerji zonalarının yaradılmasından danışılaraq, bu sahədə xarici tərəfdaşlarla əməkdaşlıq üçün geniş imkanların olduğu bildirilib.

Görüşdə Azərbaycanın Yaponiyadakı səfiri Gürsəl İsmayılzadə iştirak edib.

# Yaponiyanın ölkəmizdəki səfiri ilə Ədliyyə Nazirliyində görüş



**Martın 3-də ədliyyə naziri Fikrət Məmmədov Yaponiyanın Azərbaycandakı səfiri Cuniçi Vada ilə görüşüb.**

Dövlətlərimiz arasında səmərəli əməkdaşlıq münasibətlərinin inkişafını qeyd edən nazir Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində ölkəmizin böyük Qələbəsini vurğulayıb, torpaqlarımızın 30 illik erməni işğalından azad olunduğunu, təcavüzkar düşmənin törətdiyi müharibə cinayətlərini, ərazilərimizin büsbütün viran edildiyini diqqətə çatdırıb.

Bununla bağlı dünya ictimaiyyətinin obyektiv və dolğun məlumatlandırılması üzrə görülən tədbirlərdən bəhs olunaraq, Azərbaycan həqiqətlərinin yapon mediasında işıqlandırılması məmnunluqla qeyd olunub.

Səfir Yaponiyanın 30 il ərzində Azərbaycanla dostluq münasibətlərinin dərinləşdiyini, siyasi, iqtisadi, hökumətlərarası münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayıb, ölkəsinin regionda sülhün bərqərar olması, müharibənin dinc yolla həlli ilə bağlı mövqeyini ifadə edib, O, müharibə zamanı həlak olanlarla bağlı başsağlığı verib, azad edilmiş ərazilərimizin bərpasında ölkəmizə hər cür dəstək göstərməyə hazır olduğunu söyləyib.

Görüşdə hüquqi sahədə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb, dövlət başçısının rəhbərliyi ilə aparılan məhkəmə-hüquq islahatlarından danışılaraq bu sahədə Yaponiya Hökumətinin dəstəyi qeyd olunub. Həmçinin Azərbaycanda hakimlərin Avropada örnək kimi dəyərləndirilən şəffaf seçiminə maraq göstərilib, hakimliyə namizədlərlə yenicə test imtahanının keçirildiyi bildirilib.

Söhbət zamanı BMT-nin beş ildən bir təşkil olunan Cinayətkarlığın qarşısının alınması və cinayət ədliyyəsi üzrə 14-cü Konqresinin bu ərəfədə Yaponiyanın Kyoto şəhərində keçiriləcəyi, ədliyyə nazirinin başçılığı ilə Azərbaycan nümayəndə heyətinin bu mötəbər forumda iştirakı ilə bağlı məsələlərə toxunulub.

Qonaq nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olub, xatirə kitabına ürək sözlərini yazıb.

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5



# Milli Məclisin iclasında Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi dinlənilib

**Milli Məclisin martın 9-da keçirilən iclasında Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi dinlənilib.**



Bələdiyyələrlə bağlı hesabatı ədliyyə nazirinin müavini, II dərəcəli dövlət ədliyyə müşaviri Vilayət Zahirov təqdim edib *(Çıxışın mətni jurnalımızın bu sayında oxuculara təqdim olunur)*.

Sonra iclasda regional məsələlər komitəsinin üzvü Nizami Cəfərov illik məruzənin bu komitədə geniş müzakirə olunduğunu bildirib, fikirlərini açıqlayıb.

Plenar iclasda məruzə ətrafında aparılan müzakirələrdə birinci vitse-spiker Əli Hüseynli, vitse-spiker Adil Əliyev, komitə sədrləri Siyavuş Novruzov və Tahir Rzayev, deputatlar Sabir Rüstəmxanlı, Qüdrət Həsənquliyev, Kamran Bayramov, Azər Badamov, Erkin Qədirli, Əli Məsimli, Razi Nurullayev illik məruzəni və bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın 2020-ci ildə gördüyü işləri müsbət dəyərləndiriblər. Məruzənin yüksək səviyyədə hazırlandığı qeyd olunub. Bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə irad və təkliflər nəzərə çatdırılıb.

Müzakirələrdən sonra bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi nəzərə alınıb.

# "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətlə bağlı illik məruzə" (2020-ci il üzrə)

## Ədliyyə nazirinin müavini Vilayət Zahirovun Azərbaycan Respublikasının Milli Məclisində çıxışı

Hörmətli xanım sədr!

Hörmətli deputatlar!

İlk növbədə qeyd etmək istərdim ki, 2020-ci il ümummilli lider Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycan Respublikası üçün xüsusilə yaddaqalan olmuş, Vətən müharibəsində qazandığımız şanlı Qələbə Azərbaycan tarixinə qızıl hərflərlə əbədi həkk olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin müdrik siyasəti və qəti iradəsi, qüdrətli Azərbaycan Ordusunun qəhrəmanlığı və xalqımızın həmrəyliyi sayəsində



https://fliphtml5.com/ninpc/iuqd 27/54




işğalçı Ermənistan döyüş meydanında və siyasi müstəvidə ağır məğlubiyyətə uğrayaraq əzəli torpaqlarımız işğaldan azad edildi.

Bu şərəfli dönəmdə ölkə Prezidentinin xalqa müraciətlərində, dünyanın aparıcı medialarına müsahibələrində diplomatik məharəti və prinsipial mövqeyi, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın vətənpərvər çağırışları sayəsində beynəlxalq ictimaiyyət Ermənistanın təcavüzkar siyasəti və törətdiyi müharibə cinayətləri barədə hərtərəfli və dolğun məlumatlandırıldı, düşmənin yalan təbliğatı tam iflasa uğradı.

Vətən müharibəsi dövründə Ədliyyə Nazirliyi tərəfindən də müvafiq işlər aparılmış, ordumuza, döyüşdə yaralananlara, şəhid ailələrinə maddi, mənəvi və tibbi dəstək göstərilmiş, ədliyyə və məhkəmə işçiləri, həmçinin bələdiyyə nümayəndələri döyüşlərdə fədakarlıqla iştirak etmişlər. Ermənistanın işğalçılığı, müharibə və insanlıq əleyhinə cinayətləri barədə real həqiqətlərlə bağlı xarici dövlətlərin ədliyyə nazirlərinə, dünya prokurorlarına və bir sıra nüfuzlu beynəlxalq təşkilatlara, o cümlədən Avropa Yerli və Regional Hakimiyyətlər Konqresinə, ümumilikdə 400-ə qədər müraciət ünvanlanmışdır. Konqresin rəhbər vəzifəli şəxslərinə, eləcə də nümayəndə heyətlərinin rəhbərlərinə göndərilmiş müraciətlərdə Ermənistanın beynəlxalq humanitar hüquq normalarını kobud surətdə pozması, cəbhə xəttindən uzaqda yaşayış məntəqələrini və dinc əhalini məqsədli şəkildə atəşə tutması nəticəsində çoxsaylı ölən və xəsarət alanlar sırasında bələdiyyə sədrlərinin də olduğu, bələdiyyə binalarına, bələdiyyələrin 30-dan çox üzv və qulluqçusunun əmlakına zərər vurulduğu da qeyd edilmişdir.

Ölkəmizin ədalətli mövqeyinin təbliği məqsədilə nazirlik tərəfindən Azərbaycan, ingilis və rus dillərində "Qarabağ Azərbaycandır!" elektron məlumat platforması yaradılmışdır.

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5



Daim yenilənən və interaktiv rejimdə fəaliyyət göstərən həmin platformada Vətən Müharibəsi dövründə dövlət başçısının və Birinci vitse-prezidentin fədakar xidmətləri, Zəfər yürüşümüzə dair xəbərlər, foto və video-materiallar, 3 dildə tarixi sənədlər (o cümlədən Kürəkçay, Gülüstan, Türkmənçay müqavilələri), hüquqi maarifləndirməyə dair nazirliyin hazırladığı materiallar öz əksini tapmışdır.

Ölkə həqiqətlərini dünyaya geniş yaymaqda və erməni təbliğatını ifşa etməkdə öz imkanlarını səfərbər etməsi üçün bələdiyyələrlə də lazımi iş aparılmışdır.

Hörmətli deputatlar!

"Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı illik məruzə"-nin layihəsi Ədliyyə Nazirliyi Kollegiyasının 15.01.2021-ci il tarixli iclasında geniş müzakirə edilmiş, verilmiş təklif və tövsiyələr nəzərə alınmaqla təkmilləşdirilmişdir. Eyni zamanda bildirirəm ki, məruzənin Milli Məclisin Regional məsələlər komitəsinin iclasında müzakirəsi zamanı millət vəkilləri tərəfindən söylənilmiş fikirlər, təkliflər öyrənilərək, nəzərə alınması istiqamətində tədbirlər görülür.

Pandemiya ilə bağlı karantin tədbirlərinə baxmayaraq 2020-ci ildə də bələdiyyələrin fəaliyyətində səmərəliliyinin artırılması, yol verilmiş pozuntuların aradan qaldırılması və qarşısının alınması qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində tədbirlər davam etdirilmişdir.

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununa edilmiş 2020-ci il 19 iyun tarixli dəyişikliyə əsasən operativliyi təmin etmək üçün bələdiyyə qərarlarının inzibati nəzarəti həyata keçirən orqana göndərilməsinin 15 günlük müddəti qısaldılaraq 5 iş günündən gec olmayaraq müəyyən edilmişdir. Bununla bağlı digər qanunlara da dəyişikliklər olunmuşdur.

"Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikası Qanununa 2020-ci il 29 iyun tarixdə edilmiş dəyişikliklər nəticəsində bələdiyyələr tərəfindən qanunvericiliyin pozulması hallarını yaradan səbəb və şəraitin aradan qaldırılması da inzibati nəzarətin məqsədlərindən biri kimi müəyyən olunmuş, habelə inzibati nəzarətin təkmilləşdirilməsi üzrə yeni normalar daxil edilmişdir. Nazirliyin Kollegiyasının 2020-ci il 15 dekabr tarixli Qərarı ilə "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin təşkili haqqında Təlimat" bu Qanuna uyğunlaşdırılmış və təkmilləşdirilmişdir.

Bələdiyyələrin fəaliyyətinin qanunauyğun təşkilinə kömək və onlara metodoloji yardım göstərilməsi sahəsində fəaliyyətin dəqiq tənzimlənməsi məqsədilə "Bələdiyyələrin fəaliyyətinin təşkilinə kömək və onlara metodoloji yardım haqqında" müvafiq Təlimat hazırlanmış və Ədliyyə Nazirliyi Kollegiyasının 2020-ci il 21 noyabr tarixli Qərarı ilə təsdiq edilmişdir. Təlimatda bələdiyyələrin fəaliyyətinin təşkilinə kömək və metodoloji yardım göstərilməsinin qaydaları, əsasları və istiqamətləri təsbit olunmuş, bələdiyyə fəaliyyətinin ayrı-ayrı sahələri üzrə müsbət təcrübənin formalaşdırılması məqsədilə pilot bələdiyyələrin müəyyənləşdirilməsi, onlarla müvafiq işin aparılması, belə təcrübələrin digər bələdiyyələrdə təşviqi nəzərdə tutulmuşdur.

Həmçinin yerli özünüidarəetmə sahəsində bir sıra aidiyyəti qanunvericilik aktları təhlil edilərək, onlara dəyişikliklər edilməsi ilə bağlı 15 qanun və fərman layihələri hazırlanaraq Nazirlər Kabinetinə göndərilmiş, hazırda aidiyyəti dövlət orqanlarının rəy və təklifləri nəzərə alınmaqla layihələr üzərində iş davam etdirilir. Milli Məclisin Regional məsələlər komitəsinin iclasında səslənmiş sualları nəzərə alaraq qeyd etmək istəyirəm ki, bu təkliflər paketində bələdiyyə idarəçiliyinin təkmilləşdirilməsi, bələdiyyə torpaqlarından səmərəli istifadə olunması, torpaq ayırma qaydalarının sadələşdirilməsi, bələdiyyə torpaqlarının hərrac və ya müsabiqəyə çıxarılması hallarının dəqiqləşdirilməsi, yerli vergi və ödənişlərin toplanmasında mövcud problemlərin aradan qaldırılması, həmçinin bələdiyyələrin fəaliyyətinə həyata keçirilən inzibati nəzarətin səmərəliliyinin artırılması ilə bağlı və digər dəyişikliklər nəzərdə tutulmuşdur.



https://fliphtml5.com/ninpc/iuqd 29/54

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5



Hörmətli deputatlar!

Qanunvericiliyin tələbinə əsasən bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət iki istiqamət üzrə həyata keçirilir: inzibati nəzarət orqanına mütləq təqdim olunan bələdiyyə aktları əsasında, həmçinin hüquqlarına, qanuni mənafelərinə bələdiyyə tərəfindən zərər vurulduğunu iddia edən fiziki və ya hüquqi şəxsin, yaxud dövlət orqanının müraciəti üzrə.

Ötən il Ədliyyə Nazirliyində 79.858, o cümlədən Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyində 2.670 bələdiyyə aktına inzibati nəzarət qaydasında baxılmış və hüquqi ekspertizadan keçirilmişdir. Nəticədə 76.433 (95,7%) akt qanunvericiliyə uyğun hesab edilmiş, normativ hüquqi aktların tələblərinə zidd olan 2.939 aktın dəyişdirilməsi və ya ləğv edilməsi üçün aidiyyəti bələdiyyələrə təkliflər verilmişdir (2019-cu illə müqayisədə 6,3% çox). Bu təkliflər əsasında bələdiyyələr tərəfindən 1.416 akt ləğv edilmiş, 1.316 akt dəyişdirilmişdir. Bələdiyyələr tərəfindən təmin olunmayan 13 təklif üzrə məhkəmələrdə qaldırılmış iddialardan 2-si təmin edilmişdir.

İl ərzində bələdiyyələrin fəaliyyəti ilə bağlı 3.206 müraciətə baxılmış və bu müraciətlərin 164-ü təmin və ya qismən təmin edilmişdir (2019-cu illə müqayisədə 17% çox).

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 549-cu maddəsinə əsasən bələdiyyələrin 172 vəzifəli şəxsi barəsində inzibati xəta haqqında protokol tərtib edilərək məhkəmələrə göndərilmiş və həmin protokollar üzrə 138 bələdiyyə sədri inzibati məsuliyyətə cəlb edilmişdir.

İnzibati nəzarət icraatı qaydasında aparılmış araşdırmalar zamanı 23 halda ciddi qanun pozuntuları aşkar edilərək toplanmış sənədlər hüquqi qiymət verilməsi üçün aidiyyəti üzrə istintaq orqanlarına göndərilmişdir. Həmin materiallardan 10-u üzrə artıq cinayət işi başlanmışdır.

Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin səmərəliliyinin artırılması, həmçinin onların fəaliyyətində daha çox pozuntuya yol verilən sahələrin, bu pozuntuları doğuran səbəb və şəraitin müəyyənləşdirilməsi məqsədilə 2019-cu ilin yekunları üzrə inzibati nəzarətin nəticələri təhlil edilərək ümumiləşdirilmişdir.

Təhlil göstərmişdir ki, torpaq və maliyyə qanunvericiliyinin tələblərinə əməl edilməsi, kollegial idarəetmə, şəffaflıq və hesabatlılığın təmin olunması sahələrində bir sıra pozuntulara, o cümlədən cinayət əlamətləri olan xarakterik pozuntulara (təkbaşına qərarlar qəbul edilməsi, büdcə vəsaitlərinin qanunsuz istifadəsi, gəlirlərin büdcəyə mədaxil edilməməsi, torpaq sahələrinin saxta sənədlər əsasında satılması və ikili protokollaşdırma aparılması) yol verilir.

Bələdiyyə torpaqlarının idarə edilməsi sahəsində əsas etibarilə torpaqların icarəyə və ya mülkiyyətə ayrılması zamanı qanunvericiliklə müəyyən edilmiş prosedur qaydalara əməl edilməməsi, torpaqların təyinatına uyğun istifadəsinə nəzarətin həyata keçirilməməsi, eləcə də kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin təyinatından kənar məqsədlər üçün ayrılması, torpaq sahələrinin real bazar qiymətindən xeyli aşağı qiymətə icarəyə verilməsi, zəbt hallarının qarşısının alınması üçün qanunvericilikdə nəzərdə tutulan tədbirlərin görülməməsi kimi pozuntulara rast gəlinir.

İl ərzində torpaq sahəsinin qanunsuz ayrılması barədə bələdiyyə aktlarının ləğv edilməsi ilə bağlı nazirlik tərəfindən verilmiş təklif (bələdiyyələrə) və ya iddiaların (məhkəmələrə) təmini nəticəsində bütövlükdə 8.217 ha (2019-cu illə müqayisədə 17% çox) torpaq sahəsinin bələdiyyə mülkiyyətinə və ya sahibliyinə qaytarılması təmin edilmişdir. Həmçinin 2261 ha torpaq sahəsi ilə bağlı mübahisələr isə məhkəmələrin icraatındadır.

Qeyd olunur ki, ümumi istifadə üçün nəzərdə tutulmuş örüş sahələrinin qanunsuz icarəyə və ya mülkiyyətə ayrılması vətəndaşların çoxsaylı şikayətlərinə səbəb olur. Bu pozuntuların aradan qaldırılması məqsədilə zəruri tədbirlər görülmüş, nəticədə nazirliyin təklifləri əsasında ümumi istifadə üçün nəzərdə tutulan qanunsuz ayrılmış 3.417 ha örüş sahəsi bələdiyyələrin sahibliyinə qaytarılmış, bu sahədə tədbirlər davam etdirilir.



https://fliphtml5.com/ninpc/iuqd 30/54

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5



Bələdiyyə torpaqlarının idarə edilməsi sahəsində pozuntuların qarşısının alınması, eləcə də qanunvericiliyin tələblərinin izah edilməsi, vəzifə və səlahiyyətlərin diqqətə çatdırılması məqsədilə il ərzində bələdiyyələrlə metodiki iş aparılmış, o cümlədən müvafiq tövsiyələr hazırlanaraq bələdiyyələrə göndərilmişdir.

Təhlillər göstərir ki, bələdiyyələrin maliyyə resurslarının idarə edilməsi sahəsində əsas pozuntular yerli büdcənin icrasına ciddi nəzarətin həyata keçirilməməsi, büdcə vəsaitlərinin bələdiyyə iclasının qərarı olmadan xərclənməsi, bələdiyyə aktlarında yerli büdcədən ayrılan vəsaitin təyinatı və dəqiq miqdarının göstərilməməsi, yerli büdcənin vəsaiti hesabına görülmüş işlərin mühasibat uçotu qaydalarına uyğun sənədləşdirilməməsi, büdcədə nəzərdə tutulmayan xərclərə yol verilməsi ilə bağlıdır. Bu cür pozuntular bələdiyyələrin maliyyə vəziyyətinə mənfi təsir göstərməklə yanaşı, debitor və kreditor borcların (əsasən əmək haqqı və sosial sığorta borcları) yaranmasına səbəb olur.

Nazirlik tərəfindən bütün bələdiyyələrə "Bələdiyyələrin debitor və kreditor borclarının həlli barədə" tövsiyə göndərilmiş, büdcə sistemi haqqında qanunvericiliyin tələbləri izah olunmuş, həmçinin yerli vergi və ödənişlərin ödənilməsindən yayınma halları barədə məlumatların ictimailəşdirilməsi yolu ilə, ictimai qınaq kimi təsirli vasitədən istifadə edilməsi zərurəti diqqətə çatdırılmışdır.

Yerli özünüidarəetmə orqanlarının dayanıqlı gəlir mənbələri əldə etməsi, sahibkarlığın inkişafı, həmçinin əhalinin məşğulluğunun təmin olunmasında bələdiyyələrin iştirakının genişləndirilməsi məqsədilə onlarla aparılan metodiki işlər davam etdirilmişdir. İl ərzində 7 yeni bələdiyyə müəssisəsi yaradılmışdır ki, onların əsas fəaliyyət istiqamətlərini kənd təsərrüfatı məhsullarının istehsalı və satışı, təmir-tikinti işlərinin aparılması və s. məsələlər əhatə edir.

Yerli özünüidarəetmə orqanlarına dövlət dəstəyi kimi hər il dövlət büdcəsindən dotasiyaların, eləcə də 2019-cu ildən etibarən subvensiyaların ayrılması bələdiyyələrin maliyyə vəziyyətinin yaxşılaşmasına müsbət təsirini göstərir. Qeyd olunur ki, yerli büdcə kəsirinin ödənilməsi üçün ayrılan dotasiyanın qanunamüvafiq xərclənməsinin təmin olunması məqsədilə bələdiyyələrlə metodiki iş aparılmışdır.

Bələdiyyələrdə şəffaflıq və hesabatlılığın təmin edilməsi, o cümlədən ölkə başçısının 2020-ci il 27 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulmuş tapşırıqların icrası istiqamətində bir sıra tədbirlər görülmüşdür.

Bələdiyyələrdə büdcə intizamının gücləndirilməsi, büdcənin icrası barədə hesabatların qanunvericiliyin tələblərinə uyğun, daha dəqiq, anlaşılan və vahid formada hazırlanmasına metodiki kömək məqsədilə "Yerli büdcənin icrası haqqında (yarımillik və illik) hesabat"ın nümunəvi forması (Maliyyə Nazirliyi ilə razılaşdırılmışdır) tərtib edilərək bələdiyyələrə göndərilmişdir.

Yerli özünüidarəetmə orqanlarının işinin yeni tələblərə uyğunlaşdırılması, müasir texnologiyalar və internetdən istifadənin genişləndirilməsi üzrə həyata keçirilmiş tədbirlər nəticəsində hazırda kompüter avadanlığı ilə təmin olunmuş və internetə çıxışı olan bələdiyyələrin sayı onların 2/3 hissəsini əhatə edir. Qeyd olunan prosesin bütün bələdiyyələri əhatə etməsi istiqamətində tədbirlər görülür.

2020-ci ilin avqust ayında "Bələdiyyələrlə iş portalı"nın ilkin versiyası istifadəyə verilmişdir. Ədliyyə Nazirliyi tərəfindən yeni yaradılmış elektron resursda fərdi kabinet vasitəsilə bələdiyyə aktlarının yayımlanması, onların axtarışı, avtomatlaşdırılmış rejimdə statistik hesabatların tərtib edilməsi kimi funksional imkanlar yaradılmış, nazirliyin aidiyyəti qurumları və bələdiyyələr arasında elektron sənəd mübadiləsi təşkil olunmuşdur. Portalın funksionallığının artırılması, imkanlarının genişləndirilməsi və bütün bələdiyyələrin bu sistemə qoşulması üçün tədbirlər davam etdirilir.

Eyni zamanda ölkə bələdiyyələri barədə məlumatın əldə edilməsinə dair elektron xid-



https://fliphtml5.com/ninpc/iuqd 31/54

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5



mətin təşkili üzrə işlər yekunlaşdırılmışdır. Bu elektron xidmətin tətbiqi ilə vətəndaşların bütün bələdiyyələr və 15 mindən artıq bələdiyyə üzvü barədə məlumat əldə etmək imkanı təmin olunacaqdır.

Dövlət başçısının qanunun tələblərinə dönmədən əməl olunması, insanlara layiqli xidmət göstərilməsi, şəffaflığın artırılması və korrupsiyanın yolverilməzliyi barədə göstərişləri, eləcə də ölkə Prezidentinin çıxışlarında yerli özünüidarəetmə orqanlarının fəaliyyəti ilə bağlı qeyd etdiyi pozuntuların aradan qaldırılması üzrə tədbirlər görülməsi diqqətdə saxlanılmışdır.

Qabaqlayıcı tədbirlər çərçivəsində yerli özünüidarəetmə orqanlarında antikorrupsiya mədəniyyətinin gücləndirilməsi məqsədilə "Korrupsiyaya qarşı mübarizəyə dair hüquqi aktlar toplusu" və "Korrupsiyaya qarşı mübarizə üzrə Yaddaş kitabçası" hazırlanmış və bütün bələdiyyələrə çatdırılmışdır.

Bələdiyyələrin fəaliyyətində törədilən vəzifə cinayəti xarakterli əməllərin qarşısının alınması barədə tövsiyə hazırlanmış, tövsiyədə bələdiyyənin vəzifəli şəxsləri tərəfindən yol verilən bir sıra qanun pozuntularının, hərəkət və hərəkətsizliklərin vəzifə cinayətlərinin tərkibini yaratması ətraflı izah edilmişdir.

Bələdiyyələrə metodoloji yardım göstərilməsi sahəsində Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) ilə birgə əməkdaşlıq çərçivəsində də onlayn seminarlar və regional təlimlər təşkil edilmiş, GİZ-in maliyyə dəstəyi ilə 5 metodik vəsait çap edilmişdir. Ümumilikdə il ərzində 29 metodik vəsait hazırlanaraq bələdiyyələrə çatdırılmışdır.

Həmçinin bələdiyyə aktları, eləcə də müraciətlər əsasında aparılan araşdırmalar zamanı bələdiyyələrə müxtəlif məsələləri əhatə edən 8.532 tövsiyə göndərilmişdir.

Bələdiyyələrin işinin çevik əlaqələndirilməsi sahəsində bələdiyyələrin milli assosiasiyaları ilə qarşılıqlı əməkdaşlıq davam etdirilmiş, yerli özünüidarəetmənin aktual məsələləri üzrə birgə maarifləndirmə tədbirləri həyata keçirilmişdir.

Yerli özünüidarəetmə sahəsində beynəlxalq əlaqələrin genişləndirilməsi diqqətdə saxlanılaraq 2020-ci ildə də Avropa Şurasının, Avropa İttifaqının aidiyyəti qurumları və başqa beynəlxalq təşkilatlarla, eləcə də xarici dövlətlərin müvafiq qurumları ilə Ədliyyə Nazirliyinin və bələdiyyələrin milli assosiasiyaların əməkdaşlığı davam etmiş, nazirliyin nümayəndələri bu qurumların bir sıra tədbirlərinə qatılmışlar.

Hörmətli deputatlar!

Ölkə başçısının müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də nəzərdə tutulmuş əsas vəzifələrdən biri öz doğma torpaqlarından köçkün düşən insanların vətənə qayıdışının və məskunlaşmasının təmin olunmasıdır.

Bu istiqamətdə qarşıda duran vacib məsələlərdən biri də işğaldan azad edilmiş yaşayış məntəqələrində əhalinin yerli özünüidarə hüquqlarının təmin edilməsidir. Ölkəmizdə bələdiyyələr 1999-cu ildən fəaliyyət göstərir və həmin vaxtdan işğal altında olmuş 950-dən çox yaşayış məntəqəsində bələdiyyə seçkiləri keçirilməmişdir. İşğal nəticəsində məcburi köçkünə çevrilmiş 1 milyona yaxın vətəndaşımız özünün konstitusion hüququndan-yerli özünüidarəetmə hüququndan məhrum olmuşdur. Bildiyiniz kimi, hazırda işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsinə, vurulan ziyanın hesablanmasına başlanılmışdır. Bununla yanaşı qarşıda ərazilərin bərpası və yenidən qurulması, yaşayış üçün zəruri infrastrukturun yaradılması, vətəndaşların öz dədə-baba yurdlarına qayıtması, torpaq islahatları və digər işlər həyata keçirilməlidir. Bu çox-saylı tədbirlərdən sonra bələdiyyə seçkilərinin keçirilməsi, yerli özünüidarə orqanlarının formalaşması, fəaliyyətə başlaması və digər vəzifələr durur. Əminik ki, bu vəzifələr uğurla yerinə yetiriləcək və uzun müddət köçkün həyatı yaşamağa məcbur olmuş vətəndaşlarımızın konstitusion hüquqları bərpa olunacaqdır. Ədliyyə Nazirliyi tərəfindən də fəaliyyət istiqamətlərinə uyğun olaraq qarşıda duran vəzifələrin həyata keçirilməsi üçün zəruri tədbirlər davam etdiriləcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm!



https://fliphtml5.com/ninpc/iuqd 32/54

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5



# Ədliyyə naziri tərəfindən vətəndaşların videoqəbulu keçirilib

**Ölkə Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması daim diqqətdə saxlanılır, pandemiya şəraiti ilə əlaqədar müraciətlərə elektron qaydada baxılması təmin edilir, mütəmadi videoqəbullar keçirilir.**



Martın 18-də ədliyyə naziri Fikrət Məmmədov paytaxtda və müxtəlif bölgələrdə yaşayan vətəndaşları videoformatda qəbul edib.

Videoqəbulda vətəndaşların ədliyyə fəaliyyəti ilə bağlı və digər müraciətləri dinlənilib, qaldırılan məsələlərin həlli üzrə zəruri tədbirlərin görülməsi üçün aidiyyəti məsul işçilərə müvafiq tapşırıqlar verilib. Müraciətlərin dinlənilməsinin videoformatda təşkili vətəndaşlar tərəfindən məmnunluqla qarşılanıb.

Nazir həmçinin, qəbulda iştirak edən şəhid ailə üzvlərinin qayğıları ilə maraqlanıb. Vətəndaşlar şəhid ailələrinin və yaralı hərbçilərimizin yüksək dövlət qayğısı ilə əhatə olunduğunu vurğulayaraq onların müraciətlərinə həssaslıqla və diqqətlə yanaşılmasına görə ölkə Prezidentinə minnətdarlıqlarını ifadə ediblər.

# Hakimliyə namizədlərlə test imtahanı

**Ölkə Prezidenti cənab İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 03.04.2019-cu il tarixli Fərmanı ilə ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə qarşıda mühüm məsələlər qoyulub, o cümlədən hakimlərin iş yükünün azaldılması, işlərə vaxtında və daha keyfiyyətlə baxılması məqsədilə hakim ştatlarının sayı 200 vahid artırılıb.**





Həmin ştatların yüksək hazırlığa və mənəvi keyfiyyətlərə malik hüquqşünaslar hesabına komplektləşdirilməsi məqsədilə xüsusi karantin rejiminin tələbləri ciddi gözlənilməklə müsabiqələr keçirilib.

Bütün imtahanları, o cümlədən yarım illik tədrisi və məhkəmələrdə stajkeçməni uğurla başa vurmuş 44 nəfər hüquqşünas dövlət başçısının 03.02.2021-ci il tarixli Sərəncamı ilə müxtəlif birinci instansiya məhkəmələrinə hakim təyin ediblər.

Test və yazılı imtahandan



https://fliphtml5.com/ninpc/iuqd 33/54

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5



uğurla keçmiş növbəti 64 nəfər hakimliyə namizədlərlə bu ərəfədə şifahi imtahanlar keçiriləcəkdir.

Hakim olmaq üçün sənədlərini təqdim etmiş 230 hüquqşünasla martın 3-də test imtahanı keçirilib.

Dövlət İmtahan Mərkəzində beynəlxalq və yerli müşahidəçilərin, o cümlədən vətəndaş cəmiyyəti nümayəndələrinin, televiziya və mətbuat təmsilçilərinin iştirakı ilə keçirilən imtahanda suallar müasir texnologiyalar tətbiq edilməklə, fərdi qaydada, kompüter vasitəsilə cavablandırılıb.

Şəffaf keçirilən imtahanın nəticələri hər bir namizədə o, sualları cavablandırdıqdan dərhal sonra elan olunmaqla müvafiq arayış təqdim edilib.

İmtahanda 60 və daha artıq bal toplayaraq uğur qazanmış 155 hakimliyə namizəd müsabiqənin növbəti mərhələsinə buraxılıb.

Proses müşahidəçilər tərəfindən şəffaf prosedur kimi yüksək dəyərləndirilib.

Eyni zamanda Hakimlərin Seçki Komitəsi bildirir ki, hakimliyə namizədlərin sənədlərinin qəbulu və müsabiqələr davamlı olaraq həyata keçiriləcəkdir. Bununla əlaqədar hakim olmaq arzusunda olan hüquqşünaslar sənədlərini təqdim etməyə dəvət olunurlar.

Sənədlər Komitə tərəfindən, o cümlədən elektron qaydada, sadələşdirilmiş prosedurlarla qəbul edilir (ünvan: Bakı şəhəri, Z.Xəlilov küçəsi, 540-cı məhəllə). Belə ki, namizədliyin qeydə alınması üçün müvafiq ərizə və aidiyyəti sənədlərin surəti hsk@jlc.gov.az ünvanına elektron formatda, o cümlədən mobil telefonla göndərilə bilər.

Əlaqə telefonları: (012) 510-22-97; (012) 510-21-62

# Ədliyyə və məhkəmə islahatlarının sahibkarların hüquqlarının etibarlı müdafiəsində roluna dair videokonfrans

**Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə məhkəmə hakimiyyətinin müstəqilliyinin artırılmasına, ədalət mühakiməsinin əlçatanlığına və vətəndaşların hüquqlarının etibarlı müdafiəsinə xidmət edən mütərəqqi məhkəmə-hüquq islahatları həyata keçirilir.**

Dövlət başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanı ədliyyə və məhkəmə sistemin inkişafında yeni mərhələnin başlanğıcı olmaqla onun icrası üzrə ötən dövrdə kompleks tədbirlər görülüb.

Bu istiqamətdə görülən tədbirlər çərçivəsində martın 17-də Ədliyyə Nazirliyinin və "Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı" İctimai Birliyinin birgə təşkilatçılığı ilə "Ədliyyə və məhkəmə islahatları sahibkarların hüquqlarının etibarlı müdafiəsinə təminat verir" mövzusunda videokonfrans təşkil olunub.

Tədbirdə Ədliyyə Nazirliyinin, məhkəmə hakimiyyəti orqanlarının, Vəkillər Kollegiyasının, vətəndaş cəmiyyətinin nümayəndələri, sahibkarlar, kütləvi informasiya vasitələri iştirak ediblər.

Tədbirdə Ədliyyə Nazirliyi tərəfindən biznesə və vətəndaşlara göstərilən hüquqi xidmətlərin səmərəliliyinin yüksəldilməsi, son zamanlar nazirliyin sahibkarlarla əlaqələrinin inkişafı, sahibkarlıq subyektlərinin ədalət mühakiməsinə əlçatanlığının asanlaşdırılması ilə bağlı görülən tədbirlər və sair barədə məlumat verilib.

Çıxış edən nazirliyin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Aynur Sabitova, Azərbaycan Banklar Assosiasiyasının (ABA) prezidenti Zakir Nuriyev bildiriblər ki, hazırda Ədliyyə Nazirliyi ilə bank sektoru arasında səmərəli əməkdaşlıq mövcuddur. ABA ilə Ədliyyə Nazirliyinin işgüzar əməkdaşlığı, konstruktiv dialoq



https://fliphtml5.com/ninpc/iuqd 34/54




və tərəflərin birgə fəaliyyəti çox əhəmiyyətlidir. Bu əməkdaşlıq Ədliyyə Nazirliyinin və ABA-ya üzv bankların rəhbər şəxslərinin 2019-cu ildə keçirilmiş görüşündən sonra daha da uğurla davam etdirilir. Hazırda tərəflər arasında yaradılmış üç işçi qrup uğurla fəaliyyət göstərir.

Diqqətə çatdırılıb ki, bütün elektron layihələrdə banklar fəal iştirak edirlər. Bankların "Elektron Məhkəmə" İnformasiya Sisteminə inteqrasiyası artıq başa çatdırılmaqdadır. Zəruri proqram təminatı bankların daxili serverlərinə uyğunlaşdırılıb və yaxın zamanda məhkəmələr tərəfindən müvafiq sorğuların elektron qaydada cavablandırılması təmin ediləcək. Eyni zamanda, "Elektron notariat" və "Elektron icra" sistemi ilə də bağlı müvafiq işlər görülür.

Məlumat verilib ki, bankların fəaliyyətində iki istiqamət önəm kəsb edir. Bunlardan biri məhkəmə qərarlarının çıxarılması, digəri isə həmin qərarların icrasıdır. Bu sahədə Ədliyyə Nazirliyi tərəfindən mühüm işlər görülür. Qeydiyyat və notariat, İKT sahəsində də əməkdaşlıq yüksək səviyyədədir. Azərbaycan bankları Ədliyyə Nazirliyinin fəaliyyətindən məmnundur.

Bakı Kommersiya Məhkəməsinin sədri İlham Əhmədov qeyd edib ki, dövlət başçısının 2019-cu il 3 aprel tarixli Fərmanının icrası çərçivəsində mühüm yeniliklərdən biri sahibkarların məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması və sahibkarlıqla bağlı mübahisələrə baxılması üçün ayrıca məhkəmənin təsis edilməsidir. Məhkəmənin sədri kommersiya işlərinə çevik baxılması üçün iddiaların elektron qəbulundan və elektron sənəd dövriyyəsindən, alçatanlığın effektiv müəyyənləşdirilməsi nəticəsində kommersiya işlərinin sayının xeyli artmasından bəhs edib, ötən bir ildə fəaliyyəti barədə məlumat verib.

Sonra "Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı" İctimai Birliyinin sədri, ədliyyə naziri yanında İctimai Komitənin üzvü Əhməd Abbasbəyli, Məhkəmə Ekspertizası Mərkəzinin iqtisad ekspertizası şöbəsinin rəisi Fuad Məmmədov, Vəkillər Kollegiyası üzvü Əfqan Baxışov, "166" - Yükdaşıma və Logistika" şirkətin nümayəndəsi Süleyman Hüseynzadə, "UNIPER" şirkətinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri və "SOCAR-UNIPER" MMC direktorlar şurasının üzvü Rəşad Hüseynli, "AzFinance İnvestisiya Şirkəti" QSC-nin direktor müavini Pərvanə Qasımova və digərləri çıxış edərək ədliyyə və məhkəmə islahatlarının vətəndaşların, o cümlədən sahibkarların hüquqlarının etibarlı müdafiəsinə xidmət etdiyini vurğulayıb, tədbirin təşkilinə görə Ədliyyə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirib, mövzu ilə bağlı fikirlərini bölüşüblər.

Onlayn tədbirdə, sahibkarların sualları cavablandırılıb.

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5



# Ədliyyə fəaliyyətinə dair onlayn brifinqlər keçirilib

## ◆ "Notariat haqqında" Qanuna edilmiş dəyişikliklər" mövzusunda

**Vətəndaşların ədliyyə orqanlarına əlçatanlığının təmin olunması, əhalinin ədliyyə fəaliyyəti barədə məlumatlandırılması məqsədilə vətəndaş cəmiyyəti nümayəndələrinin, KİV-lərin, eləcə də Ədliyyə Nazirliyinin rəsmi saytlarının və sosial şəbəkələrdəki səhifələrinin imkanlarından geniş istifadə olunur. Bu baxımdan xüsusi karantin rejimi dövründə nazirliyin rəsmi "Facebook" səhifəsində ədliyyənin ayrı-ayrı fəaliyyət istiqamətləri üzrə canlı yayımların keçirilməsi də əhalinin hüquqi maarifləndirilməsi işində mühüm rol oynayır.**




Bu istiqamətdə həyata keçirilən tədbirlər çərçivəsində martın 5-də Ədliyyə Nazirliyi tərəfindən "Notariat haqqında" Qanuna edilmiş dəyişikliklər" mövzusunda onlayn qaydada brifinq təşkil olunub.

Brifinqdə iştirak edən Azərbaycan Notariat Palatası İdarə Heyətinin sədri, 2 saylı Bakı "ASAN xidmət" mərkəzində xüsusi notarius Hüseyn Məmmədov, nazirliyin Qeydiyyat və notariat baş idarəsi Dövlət reyestrləri idarəsinin rəisi Seymur İsmayılov notariat fəaliyyətinin cəmiyyətdəki rolundan, hazırkı vəziyyətindən, notariat hərəkətləri üzrə müvafiq dövlət rüsumlarından, eləcə də qanunvericilikdə edilən son dəyişikliklər haqqında məlumat veriblər.

Bildirilib ki, pandemiya dövründə nazirlik tərəfindən müasir innovasiyalardan və informasiya-kommunikasiya vasitələrindən istifadə edilməklə bütün fəaliyyət istiqamətləri üzrə vətəndaşlara hüquqi yardım göstərilir. Bütün bunlar vətəndaşlıq məmnunluğunu təmin etmək və əhaliyə layiqincə ədliyyə xidməti göstərmək məqsədi daşıyır.

Notariat fəaliyyətinin təkmilləşdirilməsində qanunvericiliyin, elektron xidmətlərin və notariat xidmətlərinin təkmilləşdirilməsi, notariat korpusunun peşəkarlığının artırılması mühüm əhəmiyyət kəsb edir. Bu istiqamətlərdə yeniliklər notariat xidmətinin səmərəliliyinin və vətəndaş məmnunluğunun artmasına şərait yaradır. Notariat fəaliyyəti ilə bağlı qanunvericilikdə edilən son dəyişikliklər məhz bu məqsədə xidmət edir. "Notariat haqqında" və "Dövlət rüsumu haqqında" qanunlara edilən müvafiq dəyişikliklər fevralın 27-də Prezident İlham Əliyev tərəfindən təsdiqlənib və martın 1-dən qüvvəyə minib.

Vurğulanıb ki, bu gün ədliyyə sahəsində elektron xidmətlərin tətbiqinə xüsusi diqqət göstərilir. Elektron notariatın inkişafı bu xidmət sahəsində yeni imkanlar açıb. Notariat sahəsində də informasiya texnologiyaları tətbiq olunur. Bu sahədə "Elektron notariat" informasiya sistemi ən vacib informasiya sistemlərindən birinə çevrilib. "Mobil notariat", mobil səyyar xidmət



https://fliphtml5.com/ninpc/iuqd 36/54

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5



çantaları vasitələri ilə notariat xidmətlərinin göstərilməsi elektron qaydada sənədlərin rəsmiləşdirilməsi imkanı yaradır və bu da elektron xidmətlərin inkişafını bir daha göstərir. Tətbiq olunan yeniliklər vətəndaşlara daha çevik və keyfiyyəti notariat xidmətlərin göstərilməsini təmin edir.

Bundan başqa, notarius korpusu yenilənir, notarius ofislərində fəaliyyət göstərən əməkdaşlar üçün müvafiq layihələr həyata keçirilir. İndiyədək notarius korpusu 60 faiz yenilənib.

Məlumat verilib ki, sənədlərin notarial təsdiqi vətəndaşların ən çox istifadə etdiyi xidmətlərdən biridir və qanunvericilikdə edilən müvafiq dəyişikliklər əsasən bu sahədə sənədlərin surətlərinin düzgünlüyü ilə bağlıdır. Həmin dəyişikliklərə əsasən notariat hərəkətlərinin aparılması üçün müraciət etmiş şəxsə verilməsi nəzərdə tutulmayan, o cümlədən notariat işinə əlavə edilməsi məqsədi ilə sənədlərin surətlərinin təsdiqinə, habelə digər notariat hərəkətinin aparılması çərçivəsində elektron informasiya sistemləri və ya ehtiyatları vasitəsilə əldə edilmiş məlumat və ya sənədlərin surətinin kağız daşıyıcısına keçirilərək təsdiqinə görə dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq tutulmur.

Dəyişikliklə sənədlərin surətinin təsdiqi üçün xərclər də azalıb. "Dövlət rüsumu haqqında" qanuna son dəyişikliklərə əsasən sənədlərin və onların tərcüməsinin təsdiqində yeni rüsumlar müəyyənləşdirilib. Belə ki, "Notariat haqqında" qanunda edilən dəyişikliklərdən əvvəl notariatda sənədlərin surətinin təsdiqi üçün beş manat məbləğində pul ödənilməli idi. Son dəyişikliyə əsasən isə bir sənədin notariat təsdiqi üçün nəzərdə tutulan xidmət haqqının ümumi məbləği hazırda üç manatdır.

Qeyd edilib ki, hazırda notariat sahəsində innovativ həllər tətbiq olunur. Vətəndaşların məmnunluqlarını təmin etmək üçün notariat ofislərində elektron köşklər yerləşdirilib. Bütün bunlar hüquq və fiziki şəxslərə keyfiyyətli xidmətin göstərilməsi üçün nəzərdə tutulub.

Onlayn tədbirdə, həmçinin notariat sahəsində yeni texnologiyaların tətbiqi, daşınmaz əmlak və sair məsələlərlə bağlı sosial şəbəkə istifadəçilərinin sualları cavablandırılıb.

## ◆ Bank sektoruna və vətəndaşlara yaradılan rəqəmsal imkanlar: mobil ədliyyə xidmətləri

**Martın 16-da Ədliyyə Nazirliyi tərəfindən "Bank sektoruna və vətəndaşlara yaradılan rəqəmsal imkanlar: mobil ədliyyə xidmətləri" mövzusunda onlayn brifinq təşkil olunub.**




Brifinqdə iştirak edən Ədliyyə Nazirliyinin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Aynur Sabitova, nazirliyin Qeydiyyat və notariat baş idarəsinin əməkdaşı Zaur Həsənov, Azərbaycan Banklar Assosiasiyasının (ABA) icraçı direktoru Yunus Abdulov notariat fəaliyyəti, bu sahədə yeni innovasiyaların və mobil versiyaların tətbiqi barədə ətraflı məlumat veriblər.

Bildirilib ki, Prezident İlham



https://fliphtml5.com/ninpc/iuqd 37/54

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5



Əliyevin tapşırıqlarına uyğun olaraq ədliyyə orqanlarının və məhkəmələrin fəaliyyətində müasir texnologiyaların tətbiqinin genişləndirilməsi, o cümlədən elektron ədliyyə xidmətlərinin sayının artırılması, bu xidmətlərdə yeni innovativ metodların və onların mobil versiyalarının tətbiqi üzrə ardıcıl tədbirlər görülür. Görülən işlər çərçivəsində bu gündən Ədliyyə Nazirliyi tərəfindən yeni mobil xidmətlər istifadəyə verilib.

Qeyd olunub ki, son illər "Notariat haqqında" Qanuna mütərəqqi dəyişikliklərin edilməsi informasiya-kommunikasiya texnologiyaları vasitəsilə elektron qaydada notariat xidmətlərinin göstərilməsinə geniş imkanlar yaradıb. Vətəndaşların ədliyyə xidmətlərinə əlçatanlığın artırılması, o cümlədən vaxtından və yerindən asılı olmadan peşəkar hüquqi yardım almaq imkanının təşkili məqsədilə 2019-cu ildən "Mobil notariat" tətbiqi uğurla istifadə olunur. Həmin tətbiq vasitəsilə bir sıra notariat hərəkətlərinin, o cümlədən nəqliyyat vasitələrinə sərəncam verilməsi və onun idarə olunmasına dair, həmçinin vəkillərə verilən və bəzi sosial etibarnamələrin elektron qaydada rəsmiləşdirilməsi mümkündür.

Diqqətə çatdırılıb ki, pandemiya dövründə vətəndaşların elektron xidmətlərdən yararlanmaq istəyi mobil tətbiqə xüsusi marağı artırıb. Hazırda istifadəçilərinin sayı 110 mindən çox olan "Mobil notariat"




vasitəsilə vətəndaşlara göstərilən mobil ədliyyə xidmətlərinin sayı 50 mindən artıqdır.

Əhaliyə təqdim olunan bu innovasiyaların funksionallığının artırılması üzrə işlər davam etdirilərək, "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın icrası çərçivəsində "Mobil notariat" tətbiqinə bu günlərdə yeni funksiyalar əlavə olunub. Belə ki, tətbiq üzərindən banklarda təmsilçilik məqsədilə verilən etibarnamələrin, eləcə də yetkinlik yaşına çatmamış şəxslərin ölkə ərazisini tərk etməsi üçün valideynləri tərəfindən yazılan razılıq və etibarnamələrə xitam verilməsinə dair ərizələrin elektron qaydada videoyazı vasitəsilə rəsmiləşdirilməsi imkanı yaradılıb. Yeni istifadəyə verilən xidmətlərdən faydalanmaq üçün vətəndaşlar "AppStore" və "PlayStore" elektron platformasından ödənişsiz olaraq "Mobil notariat" tətbiqini yükləməlidirlər. Hazırkı istifadəçilər isə proqramı yeniləməklə yararlana bilərlər. Bundan əlavə, yenilənmiş "Mobil notariat" tətbiqi vasitəsilə notariat sənədlərinin həqiqiliyini onun üzərində yerləşdirilmiş QR-kod və ya şəxsin fərdi identifikasiya nömrəsi (FİN) və sənəd üzərində yerləşdirilmiş identifikator (barkod) əsasında yoxlamaq mümkündür.

Ədliyyə Nazirliyi ilə bank sektoru arasında səmərəli əməkdaşlığın xüsusi vurğulandığı brifinqdə məlumat verilib ki, ABA ilə Ədliyyə Nazirliyinin işgüzar əməkdaşlığı, konstruktiv dialoq və tərəflərin birgə fəaliyyəti çox əhəmiyyətlidir. Bu əməkdaşlıq Ədliyyə Nazirliyinin və ABA-ya üzv bankların rəhbər şəxslərinin iştirakı ilə 2019-cu ildə keçirilmiş görüşdən sonra daha da uğurla davam etdirilir. Hazırda tərəflər arasında yaradılmış üç işçi qrup uğurla fəaliyyət göstərir, bütün elektron layihələrdə banklar fəal iştirak edirlər. Bankların "Elektron Məhkəmə" İnformasiya Sisteminə inteqrasiyası artıq başa çatdırılmaqdadır. Zəruri proqram təminatı bankla-



https://fliphtml5.com/ninpc/iuqd 38/54

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5



rın daxili serverlərinə uyğunlaşdırılıb və yaxın zamanda məhkəmələr tərəfindən müvafiq sorğuların elektron qaydada cavablandırılması təmin ediləcək. Eyni zamanda, "Elektron notariat" və "Elektron icra" sistemi ilə də bağlı müvafiq işlər işçi qruplar səviyyəsində görülür.

Brifinqdə pandemiya dövründə rəqəmsal xidmətlərin və texnologiyaların tətbiqinin genişlənməsinin əhəmiyyəti xüsusi vurğulanıb. Bildirilib ki, ölkədəki maliyyə sektorunun əsas iştirakçılarından olan bankları öz çətiri altında birləşdirən Azərbaycan Banklar Assosiasiyası tərəfindən son illərdə bank sistemində rəqəmsal transformasiyanın dərinləşməsi, bu sahədə həm ABA, həm Mərkəzi Bank, həm də Ədliyyə Nazirliyi ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən uğurlu islahatlar rəqəmsal layihələrin inkişafına müsbət təsir göstərir. Ötən il aparılmış sorğu nəticəsində müəyyənləşdirilib ki, 26 bankdan 19-da həm mobil, həm də internet bankçılıq xidmətləri təqdim olunur. Digər banklardan 6-sında yalnız internet bankçılıq xidmətləri, 1-də isə yalnız mobil bankçılıq xidmətləri göstərilir. Ani ödənişlər sisteminin, rəqəmsal ödənişlər üzrə normativ hüquqi bazanın mütəmadi əsasda təkmilləşdirilməsi üzrə atılan addımlar bank sektorunda elektron bankçılıq, xüsusən də mobil bankçılıq xidmətinin inkişafı, ödəniş kartı olmadan mobil telefonlarla rəqəmsal ödənişlərin aparılması, ictimai nəqliyyatda rəqəmsal ödənişlərin tətbiqinə başlanılması bu sahədə aparılan islahatlara nümunə ola bilər. İqtisadiyyatın müxtəlif sahələrində təzahür edən rəqəmsal transformasiya prioritet istiqamət olaraq müəyyənləşdirilib və bu məsələ strateji yol xəritəsində, dövlət proqramlarında əksini tapıb.

Vurğulanıb ki, mobil ədliyyə xidmətlərini yaradılması və tətbiqinin təşviqi banklar tərəfindən yüksək qiymətləndirilir, xidmət istifadəçilərinin əlçatanlığını təmin edir.

Onlayn tədbirdə, həmçinin sosial şəbəkə istifadəçilərinin sualları cavablandırılıb.

## ◆ "Bələdiyyələrlə iş sahəsində əldə olunmuş nəticələr, 2020-ci il üzrə illik məruzə" mövzusunda

**Martın 12-də Ədliyyə Nazirliyi tərəfindən "Bələdiyyələrlə iş sahəsində əldə olunmuş nəticələr, 2020-ci il üzrə illik məruzə" mövzusunda onlayn brifinq təşkil olunub.**




Brifinqdə iştirak edən Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rəis müavini Elmin Həsənov və əməkdaşı Nailə Rəsulzadə bələdiyyə fəaliyyəti, yerli özünü idarəetmə anlayışı, dövlət idarəetmə sistemində bələdiyyələrin rolu, səlahiyyətləri barədə ətraflı məlumat veriblər. Bildirilib ki, Mərkəzin əsas fəaliyyət istiqamətləri bələdiyyələrin fəaliyyətinin təşkilinə kömək etmək, onlara metodoloji yardım göstərmək, eyni zamanda, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti



https://fliphtml5.com/ninpc/iuqd 39/54

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5



həyata keçirmək, həmçinin qanunvericiliklə müəyyənləşdirilmiş digər istiqamətlərdir.

Məlumat verilib ki, Milli Məclisin martın 9-da keçirilən iclasında bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi dinlənilib.

Bildirilib ki, ölkəmizdə yerli özünüidarəetmə institutunun yaradılması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Özünüidarəetmə orqanlarının fəaliyyəti, dövlət idarəçiliyində vətəndaşların iştirakı Ulu Öndər tərəfindən daim demokratiyanın əsas fəaliyyət istiqamətlərindən biri kimi qiymətləndirilib. Bunun nəticəsi olaraq, Azərbaycan Respublikasının Konstitusiyasında ilk dəfə olaraq bələdiyyələrin hüquqi statusu ilə bağlı müddəalar əksini tapıb. Burada bələdiyyələrin işinin təşkili, səlahiyyətləri, qərarların qəbul edilməsi qaydası və sair məsələlər yer alıb.

Yerli özünüidarəetmə isə vətəndaşların fəaliyyətinin təşkilinin sistemidir. Bu sistem onları qanun çərçivəsində yerli əhəmiyyətli məsələləri müstəqil və sərbəst şəkildə həll etmək hüququnu, Azərbaycan Respublikasının Konstitusiyasının 144-cü maddəsinə əsasən vətəndaşların mənafeyi naminə dövlət işlərinin bir hissəsini həyata keçirməkdən ibarətdir. Bu hüququ vətəndaşlar birbaşa və öz nümayəndələri vasitəsilə həyata keçirirlər. Bələdiyyələrin əsas səlahiyyətləri sırasına yerli əhəmiyyətli ekoloji, sosial, mədəni məsələlərin həlli, bu istiqamətdə proqramların icra edilməsi daxildir.

Məlumat verilib ki, özünüidarəetmə sahəsi dövlətin diqqət mərkəzində olub. Belə ki, dövlət proqramlarında bələdiyyələrin vəzifələrinin müəyyənləşdirilməsi onun fəallığının yüksəlməsinə stimul verib. Bələdiyyələr ölkə həyatının müxtəlif sahələrində fəal iştirak edirlər, həmçinin yerli əhəmiyyətli məsələlərin həllində, problemlərin aradan qaldırılmasına səy göstərirlər.

Tədbirdə bələdiyyələrin səlahiyyətlərinin həyata keçirilməsində, onların fəaliyyətinin təkmilləşdirilməsində Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rolundan, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət sahəsində reallaşdırılan tədbirlərdən, bələdiyyələrin fəaliyyətinin təşkili və onlara metodoloji yardımın göstərilməsində Mərkəzin gördüyü işlərdən, bələdiyyələrin idarə edilməsində ictimai iştirakçılığının genişləndirilməsindən, gənclərin yerli özünü idarəetmə orqanlarında iştirakından bəhs edilib.

Qeyd olunub ki, 2020-ci ildə müvafiq qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilib. Bələdiyyələrin fəaliyyətində səmərəliliyi artırmaq üçün yerli özünüidarəetmə sahəsində bir sıra qanunvericilik aktları təhlil olunub və onlara dəyişikliklərin edilməsi ilə bağlı qanun və fərman layihələri hazırlanaraq Nazirlər Kabinetinə göndərilib. Hazırda aidiyyəti dövlət orqanlarının rəy və təklifləri nəzərə alınmaqla layihələr üzərində iş davam etdirilir. Təkliflər paketində bələdiyyə torpaqlarının ayrılması prosesinin sadələşdirilməsi, bələdiyyə torpaqlarından səmərəli istifadə olunması, yerli ödənişlərin toplanmasında yaranmış problemlərin aradan qaldırılması istiqamətində qanunvericiliyin təkmilləşdirilməsi məsələləri əksini tapıb.

Vurğulanıb ki, Ədliyyə Nazirliyinin verdiyi təklif və ya iddiaların təmini nəticəsində 8,217 hektar torpaq sahəsinin bələdiyyə mülkiyyətinə və ya sahibliyinə qaytarılması təmin edilib. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 549-cu maddəsinə əsasən, məhkəmələrə göndərilmiş inzibati xəta haqqında protokollar üzrə 138 bələdiyyə sədri inzibati məsuliyyətə cəlb edilib. İnzibati nəzarət icraatı qaydasında aparılmış araşdırmalar zamanı 23 halda ciddi qanun pozuntuları aşkarlanaraq toplanmış sənədlər hüquqi qiymət verilməsi üçün aidiyyəti üzrə istintaq orqanlarına göndərilib. Həmin materiallardan 10-u üzrə cinayət işi başlanıb.

Dövlətimizin başçısının 2020-ci il 27 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulmuş tapşırıqların icrası istiqamətində görülmüş tədbir-



https://fliphtml5.com/ninpc/iuqd 40/54

lər nəticəsində hazırda kompüter avadanlığı ilə təmin olunub və internetə çıxışı olan bələdiyyələrin sayı artıb. 2020-ci ilin avqustundan "Bələdiyyələrlə iş portalı"nın ilkin versiyası istifadəyə verilib, nazirliyin aidiyyəti qurumları və bələdiyyələr arasında elektron sənəd mübadiləsi təşkil olunub. Bələdiyyələr barədə məlumatın əldə edilməsinə dair elektron xidmətin təşkili üzrə işlər yekunlaşdırılıb. Ötən il ümumilikdə 86 maarifləndirmə tədbiri həyata keçirilib. Bu tədbirlərdə 2315 nəfər bələdiyyə üzvü və qulluqçusu iştirak edib. İl ərzində 29 metodik vəsait hazırlanaraq bələdiyyələrə çatdırılıb.

Onlayn tədbirdə, həmçinin sosial şəbəkə istifadəçilərinin sualları cavablandırılıb.

# Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti ilə əməkdaşlıq davam etdirilir





**Ədliyyə Nazirliyi Bələdiyyələrlə iş mərkəzində Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) Azərbaycan üzrə ölkə direktoru xanım Karin Hoerhan ilə görüş keçirilib.**

Görüşdə "Cənubi Qafqazda Yaxşı İdarəetmə" Proqramı çərçivəsində yerli özünüidarəetmə sahəsində GİZ ilə səmərəli əməkdaşlığın əhəmiyyəti qeyd olunub, bələdiyyələrin fəaliyyətinin səmərəliliyinin artırılması, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, bələdiyyə nümayəndələrinin maarifləndirilməsi üzrə görülən işlərdən danışılıb, həyata keçirilən tədbirlərdə GİZ-in iştirakı vurğulanıb.

Həmçinin, bələdiyyələrdə müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin vacibliyi bildirilərək bələdiyyələrlə iş portalının yaradılması, bələdiyyələrin internet informasiya resurslarından istifadəsinin genişləndirilməsi ilə bağlı görülən işlər qeyd edilib.

Xanım K.Hoerhan GİZ ilə Ədliyyə Nazirliyi arasında səmərəli əməkdaşlığı yüksək qiymətləndirib, yerli özünüidarəetmə sahəsində birgə həyata keçirilən tədbirlərdən məmnunluğunu ifadə edərək proqram üzrə işlərin, o cümlədən maarifləndirmə tədbirlərinin davam etdirilməsini vurğulayıb.

Söhbət zamanı "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın icrası çərçivəsində bələdiyyə üzvləri və qulluqçularının peşəkarlıq səviyyəsinin artırılması məqsədilə yerli özünüidarəetmə sahəsində beynəlxalq təcrübə öyrənilməsi və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olunub.

## 2021-ci il Azərbaycanda "Nizami Gəncəvi İli"dir

# Azərbaycanda siyasi-hüquqi ideologiyanın formalaşması və inkişafında Nizami Gəncəvi yaradıcılığının rolu

**Xəyyam İSMAYILOV,**
**Ədliyyə Akademiyasının Elmi-tədqiqat və doktorantura şöbəsinin baş elmi işçisi, BDU-nun Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasının professoru, h.ü.e.d.**

Siyasi-hüquqi dokrinalar, demək olar ki, fərdi yaradıcılığın nəticəsi olaraq ortaya çıxırlar. Lakin onların içərisində yalnız ictimai əhəmiyyət kəsb edənləri müəyyən sosial funksiyalara malik olurlar. Bir çox hallarda həyata keçirilməsi mümkün olmayan, bununla belə cəmiyyət və ya onun əhəmiyyətli hissəsi üçün həmişə cəlbedici olan hansısa ideallara istiqamətlənən doktrinalar mütəfəkkirlərin əksəriyyəti tərəfindən "tarixi zərurət", "ədalətlilik", "xalq iradəsi", "ölkənin maraqları", "ümumi rifah", "humanizm", "bərabərlik", "azadlıq" və s. kimi mühüm dəyərlərə söykənməklə öz mərhələsinin şəraitinə, ruhuna uyğun şəkildə əsaslandırılırdı. Dünya hüquq düzənində siyasi-hüquqi özünütəyinetmə və identifikasiyanın geniş yer aldığı və Azərbaycanın da bu prosesdən kənarda qalmadığı indiki dövr müxtəlif zamanlarda mütəfəkkirlərin ortaya qoyduğu müvafiq siyasi-hüquqi doktrinaların öyrənilməsinə marağı şərtləndirir. Bu sırada sosial-siyasi, hüquqi və fəlsəfi fikir tariximizdə müstəsna yeri olan, ictimai şüurun inkişafına ölçüyəgəlməz təkan verən dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin zəngin yaradıcılıq irsinə müraciət etmək xüsusilə aktualdır.

880 il bundan əvvəl dünyaya göz açmış böyük söz ustadının anım tədbirlərinə ötən əsrin 40-cı illərindən başlayaraq bu günümüzədək böyük önəm verilmiş, onun yaradıcılıq irsinin öyrənilməsi və yayılması istiqamətində xeyli işlər görülmüşdür. Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 2021-ci il tarixli Sərəncamı ilə qüdrətli söz və fikir ustadının insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığının bəşər mədəniyyətinin nailiyyəti kimi müstəsna əhəmiyyəti nəzərə alınaraq yaşadığımız ilin "Nizami Gəncəvi ili" elan edilməsi (22) dahi şəxsiyyətin daim diqqətdə olan yaradıcılığının hələ də öyrənilməsinə ehtiyac duyulan tərəflərinə diqqətin cəmləşdirilməsi zərurətini bir daha gündəmə gətirir. Bu baxımdan müasir problemlərin, cəmiyyətin təşəkkülü və inkişafı xüsusiyyətlərinin dərk olunmasında böyük əhəmiyyət kəsb edən, demokratik yeniləşməyə doğru oriyentir qismində çıxış edən Nizami Gəncəvi yaradıcılığının siyasi-hüquqi ideologiyanın formalaşması və inkişafında oynadığı rolun bəzi cəhətləri üzrə dayanmaq və həmin istiqamətdə bu yaradıcılığın bəzi təfərrüatlarına aydınlıq gətirmək yerinə düşərdi.

İlk növbədə qeyd edək ki, Nizami Gəncəvinin yaşadığı dövr Azərbaycanda islam dininin inkişafı ilə əlaqədar ictimai-siyasi, sosial-iqtisadi və mədəni əlaqələrin, həmçinin siyasi-hüquqi düşüncənin inkişaf etdiyi bir dövr idi. Azərbaycanda haqlı olaraq erkən İntibah dövrü adlandırılan XI-XII əsrlərdə hakim islam dini və onunla ayrılmaz surətdə bağlı olan islam hüququ müxtəlif elm sahələrinin, o cümlədən fəlsəfənin, ədəbiyyatın, hüquqşünaslığın və s. inkişafı üçün geniş imkanlar açmış oldu. Qeyd etmək lazımdır ki, bu dövrdə hüquq məsələləri digər sosial elmlərlə, xüsusən fəlsəfə ilə sıx əlaqədə nəzərdən keçirilirdi, yəni hüquqşünaslıq fəlsəfi dünyagörüşü ilə bir vəhdət halında idi. Hüququn və fəlsə-

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5



fənin inkişaf etdiyi həmin tarixi mərhələdə Azərbaycanda filosofların və hüquqşünasların böyük bir pleyadası yetişmişdi. Onların içərisində Əbdülxəlil Təbrizi, Hüseyn Bərdəi, Əbdüləziz Uşnuhi, Fəxrəddin Marağai, Əbdülmalik Beyləqani, İsmayıl Gəncəvi, Bəhmənyar əl-Azərbaycani, Əbubəkr Urmavi, Şihabəddin Sührəvərdi və digərlərini nümunə olaraq göstərmək olar ki, bütün bu mütəfəkkirlər fiqh elminə və fəlsəfəyə dair məsələlərin tədqiqinə həsr olunmuş əsərlərində yeni yanaşmalar ortaya qoyur, yeni ideyalar irəli sürürdülər. Bu sırada ön cərgələrdə qərarlaşan dahi Nizaminin zəngin və çoxçalarlı elmi-bədii yaradıcılığında bir çox digər məsələlərlə yanaşı, hüquq, dövlət, cəmiyyət və şəxsiyyət problemlərinin fəlsəfi dərkinə geniş yer ayrıldığını görə bilirik.

Özünün dərin zəkası, mükəmməl və əhatəli elmi-bədii, fəlsəfi-hüquqi dünyagörüşü ilə cəmiyyət, dövlət, insanlıq, haqq-ədalət kimi təməli başlanğıcların mahiyyətinin dərkinə yeni nəfəs verən, dövləti-hüquqi məsələlərin izahında öz dövrünə qədərki elmi bilikləri əsas götürməklə və onları inkişaf etdirməklə, sonrakı tarixi inkişaf mərhələləri üçün aktual ola biləcək məqamları açıb göstərən mütəfəkkir azadlıq, bərabərlik, ədalət, humanizm, ümumi rifah ideyalarının dərin təhlilini aparmaqla nəinki Azərbaycanda, eləcə də bütün dünya miqyasında sosial-siyasi və fəlsəfi-hüquqi ideyaların yenilənməsinə və inkişafına əhəmiyyətli töhfə vermişdir.

Humanizm, demokratiya və ədalət ideyalarının parlaq təbliğatçısı olan Nizami Gəncəvi hüquq, dövlət mövzularına xüsusi olaraq həsr olunmuş əsərlər yazmasa da, onun siyasi və hüquqi baxışlarının təkamülünün mürəkkəb prosesi dahiyanə yazılmış "Xəmsə"sində ("Beşlik") açıq şəkildə göstərilmişdir. Beş poemanın - "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl" və "İsgəndərnamə" əsərlərinin daxil olduğu bu söz və bilik xəzinəsində antik dövrün fəlsəfəsinin mütərəqqi ənənələrinin inkişafını, mütəfəkkirin siyasi və hüquqi baxışlarının demokratik yönümünü, maarifçi monarx ümidlərindən xalq hakimiyyətinin təqdir edilməsinədək olan fikirlərinin təkamülünü izləmək olar. Nizami yaradıcılığının bir çox tədqiqatçısının fikrincə, insan və hakimiyyət, şəxsiyyət və dövlət arasındakı qarşılıqlı əlaqələrin, həmçinin insanların özlərinin bir-birilə münasibətlərinin təhlilinin dərinliyi baxımından onun əsərləri qlobal miqyasda siyasi və hüquqi düşüncənin nailiyyətləri kimi qiymətləndirilə bilər. Onun fəlsəfi və siyasi-hüquqi nəzəriyyə səviyyəsinə qaldırdığı cəmiyyətin və dövlətin inkişafı məsələləri, xüsusən də ədalət mühakiməsi, qanunçuluq, sosial ədalət, müharibə və sülh problemlərinin əhatə olunduğu ayrı-ayrı siyasi-hüquqi ideyalar bu gün də dəyişilməz olaraq öz aktuallığını qoruyub saxlayır.

Yaradıcılıq yoluna qədəm qoyduğu andan etibarən Nizaminin qarşısındakı başlıca məqsədlərdən biri bədii çalarlarla hökmdarlara xalqın acınacaqlı vəziyyətini izah etmək və özünün müdrik kəlamı ilə onları soyğunçuluqdan, zorakılıqdan, qanlı müharibələrdən çəkindirməyə çalışmaq idi (16, s.62). Bu baxımdan o, sanki xalqla hökmdarlar arasında bağlayıcı bir əlaqəni yaradan həlqəni ifadə edirdi. Dövrünün olduqca savadlı insanı, şairi, alimi olan mütəfəkkir bütün poetik obrazlarını həmin dövrün elmi məlumatları üzərində qurmaqla kifayətlənməmiş, eyni zamanda özünün tarixi missiyasının, yorulmaz axtarışlarının nəticəsi olan dərin düşüncələri və dəlilləri ilə elmi inkişaf etdirmişdir.

O, yalnız orta əsrlərin Şərq dünyasının həyatı və məişəti ilə bağlı deyil, eyni zamanda düşüncələrinin mərkəzinə insanı, onun taleyini, daxili mənəvi aləmini, psixologiyasını, düşüncə və istəklərini, hisslərini, iztirab və sevinclərini qoymaqla bütün dünya üçün ümumi ola biləcək düşüncə postulatlarını yaratdı ki, bununla da nəinki öz dövrünü, hətta özündən sonrakı əsrləri də qabaqlamış oldu (19). Qarşısına qoyduğu xüsusi hədəflərinə nail olması naminə Nizami müxtəlif rəvayətlərdən çox böyük məharətlə istifadə etmişdir.

Mütəfəkkirin insan hüquqları və onların qorunmasının, şəxsiyyət azadlığının, fərdin iradəsinin müstəqilliyinin təbliğatına, bəşəriyyətin mədəni tərəqqisində dönüş nöqtələrindən biri olan İntibahın mənəvi mahiyyətinin açıqlanmasına yönəlmiş humanist konsepsiyası onun siyasi və hüquqi baxışlarında, xüsusən də sosial ədalət, bərabərlik, ümumi rifah məsələlərinə aid fikirlərində öz təcəssümünü tapırdı. Onun ümumbəşəri ideallarla yaşaması və bu ideallar uğunda mübarizə aparması, bəşəriyyətin taleyi



https://fliphtml5.com/ninpc/iuqd 43/54

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5



üçün hər kəsin öz imkanı çərçivəsində məsuliyyət daşımasını xüsusilə vurğulaması, əsərlərində daha çox insanın taleyüklü problemlərinin həllini önə çəkməsi bəşəriyyətin xoşbəxt gələcəyinə inanan bu dahi şəxsiyyətin mənəvi aləmini göz önündə canlandırır. Bununla bağlı H. Araslının söylədiyi "Nizami xalqların səadətini, istiqlaliyyətini, onların hər cür istismardan azad olmasını istəyib bütün ömrünü bu uğurda sərf etmişdir. Nizami əməkçi insanın hüquqları uğrunda mübarizə aparmışdır. Nizami öz xalqını bütün dünyada şöhrətləndirmiş və bütün xalqların bərabər hüquqlu mədəni həyatını arzulamışdır"(1, s. 118) fikri ilə razılaşmamaq mümkün deyildir.

Orta əsrlərin dini liderlərinin təsdiqinə görə, nə qədər ki, ruh materiya ilə birləşmişdir, mütləq xoşbəxtlik və ədalətdən danışmaq mümkün deyildir. Tam xoşbəxtlik yalnız o biri dünyada, cənnətdə mümkündür. Əgər ortodoksal din "xoşbəxtlik ölkəsini" yalnız mömin insanın ölümdən sonra gedəcəyi cənnətdə görürdüsə, mistik baxışları sərgiləyən Nizami insanın bu həyatdakı ruhunda xoşbəxtlik və ədaləti cəmləşdirməyi - öz qəlbində "ilahi şəhər" qurmağı mümkün sayır. Onun fikrincə, sosial gerçəklik özünün maddiliyi ucbatından mükəmməl deyil, bununla belə, mümkün olduğu qədər əməli-saleh insanların ruhunda yaradılan ideallara doğru yön almalıdır.

Özünün fövqəlbəşəri düşüncələri, səyləri ilə kainatın və insan qəlbinin "anatomiya"nı aydınlaşdırmaqdan ötrü dünyanın iç üzünə baş vuran Nizami cəmiyyətdə ortaya çıxan problemləri açıq-aydın görür. Onun fikrincə, bu problemlərin yoluna qoyulması istiqamətində başlıca vəzifə, müasir dillə desək, həm insanın, həm də cəmiyyətin yenidən dəyişdirilməsindən ibarətdir. Var-dövlət hərisliyindən, qızılın hakimiyyətindən, qəddarlıqdan, bihudə tökülən qanlardan, mənasız qırğınlardan hiddətlə danışan mütəfəkkir zülmü və hüquqsuzluğu çəkinmədən qınayır. Müəyyən mənada mücərrəd və subyektiv görünsə də, onun mükəmməl cəmiyyət haqqındakı utopiyası dünyəvi işlərlə də əlaqəlidir. Nizamiyə görə ədalət "səltənəti" ilk növbədə insanın ruhunda qərarlaşmalıdır və yalnız bundan sonra dünyanın şəri qeyb olacaqdır.

Dahi mütəfəkkirin cəmiyyətin saflığı, insanın rifahı, dövlətin inkişafı üçün hüquqi qaydanın, ədalətin zəruriliyi ilə bağlı fikirlərinin aktuallığı müasir dövrümüzdə baş verən siyasi-hüquqi, sosial-iqtisadi proseslərlə bir daha təsdiqlənir. A.Bertelsin "böyük sosial problemlərin həllinin ən zəruri ehtiyaclara və real imkanlara bağlandığı indiki günlərimizdə biz Nizamini onun öz müasirlərindən daha fərqli bir duyğu ilə oxuyuruq" fikri ilə razılaşmamaq çətindir. Hələ ötən əsrdə akademikin haqlı olaraq vurğuladığı kimi, "zamanımıza qədər bütün bəşəriyyətin səkkiz yüz illik təcrübəsi var və biz humanizmin, insana olan ülvü məhəbbətin, isti münasibətin tədricən gerçəkliyə necə qovuşduğunu, mücərrəd normalardan ictimai institutlara çevrildiyini və cəmiyyətin yeni quruluşu ilə necə təsbitləndiyini görürük. Və eyni zamanda dərk olunmamışlara və həyata keçirilməyənlərə də nəzər salmaqla bir daha əmin oluruq ki, Nizaminin qarşısında olduğu kimi, bizim də qarşımızda həlli olduqca çətin olan məsələlər durur. Bununla belə əldə olunanlardan məmnunuq, bu, bizə irəliyə ümidlə baxmağımız və insanların min illərdir çətinliklə, büdrəyərək getdiyi xeyirxahlıq və həqiqət yolunda yorulmaq bilmədən irəliləməyimiz üçün əsas verir "(20).

Nizami şəxsi maraqların ictimai mövqelərə uyğunluğunu zəruri hesab edirdi. Humanist keyfiyyətlər, qabiliyyətlər bilavasitə digər insanlara münasibətdə özünü göstərir. Şair-mütəfəkkirin vurğuladığı vətənpərvərlik, dostluq, ədalət, səxavət kimi ən yüksək və nəcib insani keyfiyyətlər bir harmoniya təşkil edir və sosial, eləcə də etik baxımdan olduqca mühümdür. Bununla yanaşı, insanın mövcudluğunun labüd şərtlərindən biri də onun digər insanlarla birgə əməyi, cəmiyyətdəki həyatdır. Lakin insan birgəyaşayışının faciəvi, ağrılı tərəfi də ondan ibarətdir ki, insanlar hələ də öz ehtiraslarını, hərisliklərini idarə etməyi və müştərək əmək nəticəsində əldə etdikləri nemətlərin bərabər qaydada bölüşdürüləcəyi və cəmiyyətin bütün üzvlərinin instinktlərinin məntiqi hüdudlar çərçivəsində təmin olunacağı bir əməkdaşlıq formasını təşkil etməyi öyrənməmişlər.

Nizaminin fikrincə, şüura malik olan hər kəs yalnız özündə cismani ehtirasları cilovlamaq yolu ilə ilə əsl insan ola bilərdi. Bunun üçün ən effektli vasitə kimi fəal həyat tərzi sürməyi, nəfsini saxlamağı, bütövlükdə mə-



https://fliphtml5.com/ninpc/iuqd 44/54

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5



nəvi enerjini yaradıcı işə yönəltməyi hesab edirdi, zatən onun da vurğuladığı kimi, insanın bu dünyadakı başlıca təyinatı qurub-yaratmaq, ictimai faydalı işlər görməkdir (18). Bütün əsərlərində mütəfəkkir müstəbid hökmdarlarla dünya nemətlərini yaradan sadə insanları - əkinçiləri, şəhər əməkçilərini, memarları, alimləri, mahir sənətkarları və s. üz-üzə qoyur və müqayisədə cəmiyyət üçün kimlərin daha faydalı və lazımlı olduğunu açıb göstərirdi.

Yalnız xeyriyyəçilik düşüncəsinin hakimiyyətdə təmsil olunanların qəlblərinə hakim olduğu, onların ruhunun bütün cismani rəzalət və pisliklərdən - rəzil ehtiraslardan, acgözlükdən, həsəddən, mənsəbpərəstlikdən təmizləndiyi, dövlət siyasətinin xalqın maraqlarına uyğun olaraq həyata keçirildiyi halda cəmiyyət harmonik bir hala gəlib çıxa bilər (11).

Nizaminin konsepsiyasına görə, əxlaqi əsaslara söykənən cəmiyyət yalnız o zaman qurula bilər ki, cəmiyyətin bütün üzvləri və ilk növbədə hökmdarlar özlərini tərbiyə etməklə bütün səylərini faydalı əməllərə yönəltsinlər. Xalqı xoşbəxt həyata aparan qanunlar, şəxsiyyətin üzərində dövlət qayğısı mütəfəkkirin ütopiyası idi və o, belə bir gələcəyə inanırdı. Bu utopiya onun uzaqgörənliyi idi və onun öz dövründən çox daha irəlidə olduğu haqqında şəhadət verirdi. Çünki hamının qanun qarşısında bərabər olacağı bir cəmiyyət hələ çox uzaqda idi. Bu, Nizaminin müasirlərindən heç birinin XII əsrdə irəlicədən görə bilmədiyi bir ictimai həyat idi.

Sosial ədalətsizlik, sosial və əmlak bərabərsizliyinə qarşı çıxan mütəfəkkir feodal cəmiyyətini özbaşınalığın, qanunsuzluğun hökm sürdüyü, ədalət mühakiməsinin və həqiqətin olmadığı, "hər şeyin kirə bulaşdığı və hüquqsuzluğa büründüyü" "məşəqqətli zindan" adlandırır (14, s. 111). Bu baxımdan onun ədalətsizliyə, qanunsuzluğa və zülmə qarşı sosial etirazının nümayiş olunduğu "Sirlər xəzinəsi" poemasından sitat gətirmək yerinə düşərdi: "Dövrə bax ki, alçalıb, zülmdən, şərdən bəşər, Azğınlığın əlindən qaçır bəşərdən bəşər. İnsanda nə ləyaqət, nə mərdlik qalıb indi, İnsandan insanlığı namərdlik alıb indi" (4, s. 81).

Mütəfəkkir qanunsuzluğun, qeyri-bərabərliyin sosial ədalətsizliyə, insanın şərəf və ləyaqətinin alçaldılmasına, insan azadlığının, sərbəstliyinin inkarını isə zülm və istibdada yol açdığını söyləyir. Nizami insana zülm edən, onu aşağılayan hər şeyə qarşı çıxdı. Bu, hökmdarların despotizmi də, insanın özünün rəzil hissləri də ola bilər. Onun "Sirlər xəzinəsi" poemasını ibrətamiz nəsihətlərin xəzinəsi, həyat dərsliyi adlandırmaq daha düzgün olardı. Əsərin məzmununda yalnız bir süjet xətti yoxdur, burada həm sosial ədalətsizliyin qeyzli şəkildə mühakimə edilməsini, həm hakimiyyətin özbaşınalığının və zorakılığının ifşasını, həm də insanın tamahkarlıq, xəyanət, tənbəllik, yaltaqlıq və s. kimi mənfi xüsusiyyətlərinin istehza hədəfinə çevrilməsini özündə əks etdirən nəsihatamiz rəvayətlər məcmusunu görmək mümkündür. Sadə xalqın nümayəndələrinə böyük rəğbətlə yanaşan mütəfəkkir həmin əsərdə əməkçi əhali ilə istismarçı təbəqənin müxtəlif obrazlarını məharətlə yaratmaqla, bu obrazların nümunəsində cəmiyyətə bir növ tərbiyəvi, əxlaqi mesajlar ötürür. Poemanın müxtəlif ibrətamiz hekayələrində ("Ədalətin müdafiəsi haqqında şaha nəsihət", "Şahın təbəələrinə xeyirxah münasibəti haqqında", "Qoca qarı və Sultan Səncər", "Zalım şah və həqiqətpərəst insan haqqında" və s.) Nizami hökmdarlara öyüd-nəsihətlə müraciət edir və onlara bu nəsihətlərə əməl edəcəkləri təqdirdə ədalət sahibi olacaqlarını, öz dövlətlərini zülmün və özbaşınalığın tüğyan etdiyi şahlıqdan ədalət və hüquqi qayda-qanunun hökm sürəcəyi abad bir ölkəyə çevirən, insanların rəğbətini qazanan bir başçı kimi şöhrət tapacaqlarını başa salmağa çalışırdı.

"Sirlər xəzinəsi"ndə müasiri olduğu həyatın müxtəlif məqamlarına toxunan mütəfəkkir keçmişin qaranlığını, cəhaləti pisləməklə, insanın əzəmətini, həyatın gözəlliyini əsaslandırmaqla, dövrünün ən mütərəqqi humanist ideyalarını ifadə edir. Şair gah dahiyanə nəzərləri ilə keçmişə göz gəzdirir, gah da keçmişlə öz dövrünü qarşı-qarşıya qoyur və nəticə etibarilə oxucularını humanizm prinsipləri üzərində qurulmuş həyata doğru yönləndirir. Nizami insanlığın keçmişindən ibrətamiz nümunələr gətirir, həyatın mənası haqqında düşüncələrə aparan müxtəlif dünya mənzərələrini canlandırır. O, həyatdan uzaqlaşmağa çağırmır, əksinə tam, mənalı bir həyat yaşamağı məsləhət görür: "İnsana baş olmaq insanlıq istər, Yoxsa hər bir adam insandır-bəşər.



https://fliphtml5.com/ninpc/iuqd 45/54

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5



Böyüklük eyləsən hər kəsə asan, Ancaq baş olacaq şəfqətli insan" (6, s.107). Özünün fitri istedadı və intellektual səviyyəsi ilə dövrün, zamanın köklü problemlərinin mahiyyətini dərindən dərk etmiş və bütün yaradıcılığını insanlığa xidmətə həsr etmiş mütəfəkkir humanizmi qüdrətli bir mənəvi silaha çevirərək, bütövlükdə sosial-iqtisadi və siyasi quruluşun çatışmazlıqlarına və qüsurlarına qarşı yönəltmişdi.

O dövrün ictimai-siyasi sistemini, yəni feodal cəmiyyətini tənqid edən Nizami öz siyasi idealını axtarırdı və onun yaradıcılığında belə bir ideal cəmiyyət ədalət, humanizm, ədalət mühakiməsi prinsiplərinə əsaslanan maarifçi monarxiya idi (13, s. 8). Deməк olar ki, mütəfəkkirin bütün əsərlərində öz ölkəsini xalqın rifahı naminə qayğıkeşliklə idarə edən ədalətli, maarifçi, müdrik bir hökmdar ideyası təbliğ olunur. "Yeddi gözəl" poemasında Bəhram Şah, "Xosrov və Şirin"-də Şah I Xosrov Ənuşirəvan, "İsgəndərnamə"də Makedoniyalı İsgəndər öz təbəələrinin rifahı üçün çalışan ədalətli, müdrik, maarifçi hökmdarlar obrazında çıxış edirlər. Məhz onların hökmranlığı zamanı ədalət qələbə çalır, ədalət mühakiməsi və qanunçuluq bərpa edilir. Nizaminin əsərlərində ideal hökmdar idarə etdiyi cəmiyyətin rifahını və firavan həyatını təmin edə bilən, dövlət maraqlarını və ictimai mənafeləri özünün şəxsi maraqlarından üstün tutmağı bacaran, xalqın təhlükəsizliyinin keşiyində dayanan, özündə bütün əxlaqi-mənəvi keyfiyyətləri birləşdirən hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi qələmə verilir. Bununla yanaşı, ədalətli, müdrik hökmdarların əməllərinin həm də bütün insanlığa xidmət etməsi, yalnız öz xalqının taleyi və rifahı ilə bağlı deyil, digər xalqların da əmin-amanlığı naminə işlər görməsi vacib hesab olunurdu.

Mütəfəkkirin fikrincə, "Dünyada zülm etmə cəsarət deyil" (5, s. 319). Hökmdarın cəsarəti xalqa qayğı göstərməkdən, ədalətli mühakimədən, xeyirxah və faydalı işlər görməkdən ibarətdir. Cəmiyyətin rifahının irəliyə aparılması asan olmasa da, məhz bu vəzifə hökmdarların gündəlik qayğısı olmalı idi. Eyni zamanda o, müharibələrin amansız qeyri-insani dəhşətlərini açıb göstərməklə onlara qarşı çıxır, yalnız müdafiə xarakterli, yadellilərin basqınının qarşısının alınmasına yönəlik silahlı çarpışmalara haqq qazandırırdı. Həmçinin istismara və ədalətsizliyə gətirib çıxaran digər naqisliklər, saray əhli tərəfindən yol verilən sui-istifadələr, onların aralarında hökm sürən təmtəraqlı və israfçı həyat tərzi mütəfəkkir tərəfindən qınaq hədəfinə çevrilirdi.

Nizaminin məntiqinə görə dövlətin xoşbəxt gələcəyi və cəmiyyətin rifahı ədalətlə ayrılmaz şəkildə bağlıdır. Ədalətin şərtlərinə riayət etmək bir tərəfdən dövləti gücləndirir, digər tərəfdən isə cəmiyyətin maddi, iqtisadi və sosial vəziyyətindəki tarazlığı təmin edir. Mütəfəkkir hesab edirdi ki, ədalət təbiətlə cəmiyyət arasında bir harmoniya yaradır və bu cür harmoniya nəticəsində cəmiyyətə yad elementlər məhv olur, cəmiyyət üzvlərinin həyati fəaliyyəti normal inkişaf yollarını əldə edir. Belə şəraitdə hər kəs və bütövlükdə cəmiyyət insan əməyindən faydalanır. Ədalət kateqoriyası mütəfəkkir tərəfindən dövlət-hüquqi təzahürlərin postulatı kimi təsdiqlənir, siyasi və hüquqi səciyyə kəsb edir.

Bütün zamanların mütəfəkkirləri tərəfindən ədalətsizliyin zülmə bərabər olduğu dəfələrlə vurğulanmışdır. Nizaminin "Sirlər xəzinəsi"ndə sosial təzahür olaraq tərənnüm edilən ədalət (həmçinin də ədalətsizlik) ikili mahiyyət daşıdığı haqqında fikirlər də söylənilir: 1) fəal mövqedə ifadə edilən ədalət və ya ədalətsizlik; 2) passiv davranışın nəticəsi olan ədalət və ya ədalətsizlik (3, s.104).

Birinci halda ədalət daxili əxlaqi niyyətdən fəal zahiri hərəkətə çevrilərək nəyinsə həllində özünü biruzə verir. Məsələn, hökmdar kiminsə cəzasını yüngülləşdirir və ya günahlarını bağışlayır və ya ümumiyyətlə, vətənpərvərlik hisslərinin təsiri altında heç bir haqsızlığa yol vermir. İkinci halda ədalət adətən hansısa ədalətsizliyin edilməməsində özünü biruzə verir. Belə ki, insan başqaları üçün xeyirli olmayan hərəkətlər etmir (hətta zahirən hərəkət haqlı görünsə də, nəticədə faydalı ola bilməyəcəyi hallarda belə müvafiq hərəkətlərə yol vermir). Nümunə olaraq ədalət göstəricisi kimi hökmdarın öz təbəələrinə qarşı münasibətlərində müəyyən sərtliyi, şiddəti ilə nəzərə çarpan qanuni rəftarın nisbətən yumşalmasını göstərmək olar. Nizami bu problemə diqqət çəkərək şahlara, hökmdarlara nəsihət edirdi ki, təbəələrlə bağlı hər hansı bir hərəkət etməzdən əvvəl hər zaman ətrafı ilə məsləhətləş-



https://fliphtml5.com/ninpc/iuqd 46/54

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5



mək lazımdır. Müdrik hökmdarlar ağıllı məsləhətlərin nəticəsi olaraq, müvafiq problemlərin həlli zamanı yüngülləşdirici halları daha çox önə çəkirdilər.

Ədalət ideyası və ictimai hadisələrin bu ideya baxımından dəyərləndirilməsi onun bütün əsərlərində mövcuddur. Nizaminin elə bir əsəri yoxdur ki, orada ədalət, sosial bərabərlik prinsipləri önə çəkilməsin və qorunmasın. Sosial bərabərlik ideyası qadınlara münasibətdə bir qədər də geniş şəkildə müdafiə olunur. Bu kontekstdə onun müdriklik və azadlıqsevərlik kimi xüsusiyyətləri özündə daşıyan qadınların bərabərliyi haqqında ideyası orijinal görünür. Nümunə üçün deyək ki, qadın hökmdarlar ("Xosrov və Şirin"də şahzadə Şirin, "İsgəndərnamə"də Bərdə şəhərinin hökmdarı Nüşabə) yer üzündə firavanlıq və dinclik yaratmaq uğrunda çarpışan müdrik hökmdarlar kimi davranırlar.

Dahi mütəfəkkiri narahat edən başlıca problemlərdən biri feodal münasibətlərinin antihumanist səciyyə daşıması və mükəmməl olmaması idi. Bu münasibətlər üçün bütün insanlığın iki nəhəng qrupa - müstəbidlərə və əzilənlərə, hökmlülərə və mütilərə, zülmkarlara və məzlumlara bölünmüş kimi təsəvvür edilməsi xarakterikdir. Həmin qruplar arasında mövcud olan münasibətləri (müasir dillə desək, feodal münasibətlərini) şair-mütəfəkkir insanlıqdan kənar, qeyri-təbii, anormal hesab edir və onların kökündən dəyişdirilməsinin zəruriliyi ideyasını öz əsərlərinin leytmotivinə çevirir. Bununla belə, Nizami üçün mütləq zalımlar və mütləq məzlumlar yoxdur, yalnız həmin keyfiyyətlərin bu və ya digər situasiyadan asılı olaraq xarakter və davranışının dəyişkənliyini ortaya qoyan konkret daşıyıcıları var (12, s. 151).

Nizami feodal quruluşunun ləğvi məsələsini gündəmə gətirməsə də (tarixi məhdudiyyətlər səbəbindən bunu edə də bilməzdi), ədalətli dövlət hakimiyyəti yaratmaqla feodal gerçəkliyini dəyişdirməyə, xalq kütlələrinin həyatını yaxşılaşdırmağa çalışır, həyatın ahənginin pozulmasını, feodal dünyasının hərcmərcliyini, onun nifrət oyandırıcı tərəflərini, pis işləri, zorakılığı qınayırdı. O, şəhər və kəndlərin dinc yanaşı yaşamasına havadarlıq edən, qanunlara riayət edən, hamıya əl tutan, ölkənin çiçəklənməsini və rifahını, ticarət və sənətkarlığın inkişafını, kəndlinin asudə əməyini təmin edən ədalətli şahların arzusunda idi. Nizamiyə elə gəlirdi ki, bütün bunlar insafsız, qəddar və azğınlaşmış xırda feodallara deyil, şəhərə, dövrün mütərəqqi qüvvələrinə, ağıl sahiblərinə, müdriklərə arxalanan ədalətli bir şahın hakimiyyəti altında ölkənin birləşdirilməsi yolu ilə mümkündür. Bu ideyalar şairin fantaziyası və uydurması deyildi, bunlar hakimiyyətin Şirvanşahlar və Eldəgizlərin əlində cəmləşməsi, feodal Azərbaycanın birləşdirici tendensiyaları, inkişaf etməkdə olan sosial proseslərlə diktə edilirdi. Əlbəttə ki, Nizaminin dövrü ilə sonrakı dövrləri, xüsusən də Avropa İntibahı dövrünü eyniləşdirmək də düzgün olmazdı və artıq Avropa Renessansı dövründə feodal münasibətlərini kökündən laxladan tarixi şərait yetişmişdi. Bununla əlaqədar Fridrix Engels yazırdı: "Kral hakimiyyəti şəhər əhalisinə arxalanaraq feodal zadəganlığının qüdrətini sarsıtdı və nəhəng, lakin mahiyyət etibarilə milli monarxiyaların əsasını qoydu ki, bu monarxiyalarda müasir Avropa xalqları və müasir burjua cəmiyyəti öz inkişafını tapmış oldu"(17, s. 475). Nizami öz əsərlərində məhz bu məqamları, yəni öz dövrünün hələ inkişaf etməmiş, lakin getdikcə artmaqda olan inkişaf tendensiyalarını təsvir edirdi.

Ümumiyyətlə, Nizaminin sosial-siyasi və hüquqi ideyaları orta əsr asketizminin əhəmiyyətli dərəcədə təsiri altında olmasına rəğmən humanist səciyyəyə malik idilər. Nizami feodal cəmiyyətinin qüsurlarını açıb göstərməklə onları mühakimə edir; ədalət axtarışlarında öz nəzərlərini keçmişə tuşlamaqla ideallaşdırılmış Yunan demokratiyasını öz dövrü ilə qarşı-qarşıya gətirirdi. Nizaminin əsərlərinin məzmunundan aydın olur ki, o, qədim dövrün mütəfəkkirlərinin, xüsusən də Platon və Aristotelin (Nizaminin poemalarında onların adları xatırladılır) siyasi və fəlsəfi-etik traktatları ilə tanış olmuşdur. Bununla belə, adı çəkilən mütəfəkkirlərin traktatlarının adlarına həmin əsərlərdə rast gəlinmir. İstisna deyildir ki, yuxarıda adı çəkilən qədim yunan mütəfəkkirlərinin fikirləri Nizaminin siyasi-hüquqi dünyagörüşünə müəyyən dərəcədə təsir göstərmişdir, lakin Nizaminin bu filosoflar haqqında məlumatları bu suala təsdiqedici tərzdə cavab verməyə tam əsas vermir. Bununla belə, Nizaminin humanizm və ədalət



https://fliphtml5.com/ninpc/iuqd 47/54

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5



haqqında baxışlarını bu mütəfəkkirlərin fikirləri ilə qısaca müqayisə etməyə çalışaq. Xüsusilə Nizaminin siyasi bərabərlik haqqında görüşləri Aristotelin ideyaları ilə uzlaşır. O da, Aristotel kimi, bütün insanların tam siyasi bərabərliyinin mövcudluğunu israr etməkdən uzaq idi. Məsələn, Nizaminin "əkinçinin hökmdar olması münasibmidir?" kimi kəlamını yada salaq (7, s. 181). Vaxtilə Platonda olduğu kimi, Nizami də zülmkarlığın, ölüm cəzasının və hakimiyyətdəkilərin özbaşınalığının qəti əleyhdarı olaraq çıxış edirlər. Platon kimi Nizaminin də xəyalları dövlət içindəki çarpışmaların və düşmənçiliyin ortadan qaldırılmasına yönəlmişdir.

Bu mütəfəkkirlərin dünyaya baxışlarının dərindən öyrənilməsi, onların aralarındakı əhəmiyyətli fərqləri üzə çıxarmağa imkan verir. Nizaminin fikirlərinin əksinə olaraq Platon hesab edirdi ki, dövlət işlərində "daxili təlatümlərə" yol verməmək, "sosial gərginliyi" yumşatmaq üçün "bərabərliyin püşk atmaq yolu ilə tətbiq olunması zəruridir, özü də bu zaman tanrıya yalvarmaq və xeyirli bəxtə təvəkkül etmək lazımdır ki, onlar taleyi yüksək ədalətə uyğun olaraq yönəltsinlər. Hər necə olsa da, bərabərliyin hər iki növündən istifadə etmək lazım gəlir, lakin elə etmək lazımdır ki, təsadüfiliyə əsaslanan bərabərlikdən mümkün qədər az istifadə edilsin" (15, s. 231-232). Platonun ədalət haqqındakı təsəvvürlərinin sözün müasir mənasında elmi nöqteyi-nəzərdən dəyərə malik olmasını söyləmək oluqca çətindir. Çünki onlar həm ziddiyyətli mühakimələri, həm də təbii ki, hakim təbəqənin ideoloji yönümlərini ehtiva edir.

Öz vətəndaşlarının layiqli həyatını təmin edə bilən dövlətin normal fəaliyyət göstərməsi üçün ən mühüm şərt kimi sosial ədalət konsepsiyasını təfərrüatlı şəkildə ortaya qoyan Aristotel ədaləti "axşam və səhər ulduzlarının işığından daha çox heyrətləndirən" fəzilətlərin ən böyüyü hesab edirdi (8, s.147). Nizaminin ədalət ideyasından fərqli olaraq, Aristotel ədaləti qismən əmlakların, mənsəblərin və bütün vətəndaşlara məxsus digər nemətlərin onların ləyaqətinə görə, yəni xidmət və məziyyətləri nəzərə alınmaqla (bir növ ictimai əmlakın bölüşdürülməsi zamanı bəzi hallarda ayrı-ayrı vətəndaşların xəzinəyə verdiyi ödənclərin arasındakı proporsiyanın əsas götürüldüyü kimi) bölüşdürülməsi ilə əlaqələndirirdi. Aristotel müxtəlif təbəqələrdə ədalətin eyni dərəcədə traktovka edilməməsi baxımından meydana çıxan sosial münaqişələrin qarşısını almağın ən yaxşı üsulu kimi bir sıra hallarda kəmiyyət bərabərliyinin (bərabərləşdirici ədalət), digər hallarda isə həndəsi bərabərliyin (bölüşdürücü ədalət) əsas götürülməsini düzgün hesab edirdi. O, bərabər olan insanların rifahına münasibətdə bərabərliyin ədalətli olduğunu qeyd etməklə bərabər, həm də bərabər olmayanların bərabərsizliyini də ədalətli sayırdı. Mütəfəkkirə görə, bərabər olmayan insanların bərabər tutulması ədalətsizlik olardı və bu səbəbdən də Afina demokratiyasına xas olan sosial bərabərsizliyi əsaslandırdı: "bəzi insanlar təbiətcə azaddırlar, digərləri kölədir və bu sonuncuların kölə olması faydalı və ədalətlidir"(8, s. 341, 384).

Nizaminin dövlət və onun mənşəyi haqqında ideyaları da bir sıra hallarda adını çəkdiyimiz antik filosofların fikirləri ilə uyğunluq təşkil edir. Nümunə üçün deyək ki, dövlətin teokratik mənşəyi həm Nizamidə, həm də Platon və Aristoteldə eyni dərəcədə əsaslandırılır. Bununla belə qeyd edilməlidir ki, dövlətin mənşəyini ilahi qüvvə ilə əlaqələndirməsinə rəğmən, dahi mütəfəkkir dövlətin inkişafında, onun quruluşunun mükəmməl bir vəziyyətə gətirilməsində insanın bacarıq və qabiliyyətinin, iradəsinin mühümlüyünü ön plana çəkir. Nizamiyə görə yalnız dərrakəli insan ümumi rifahı təmin edə bilən, hamını həqiqi xoşbəxtliyə çatdıra bilən siyasi quruluşu yaratmaq iqtidarındadır.

Onu da vurğulamaq lazımdır ki, Nizaminin ideal dövlət, ideal cəmiyyət barədə irəli sürdüyü konsepsiya ona qədərki mütəfəkkirlərin yanaşmalarından fərqlənir. Xüsusən də ideal dövlətə dair Platonun ideyaları ilə müqayisədə Nizaminin analoji konsepsiyası özünün demokratizminin səviyyəsi ilə seçilir. Belə ki, Nizami ideal cəmiyyəti insanların müxtəlif təbəqələrə bölgüsünün olmadığı bir quruluş kimi təsəvvür edir. Burada hər kəsin bərabərliyi hökm sürməklə nə köləlik, nə xüsusi mülkiyyət, nə də istismar mövcud deyildir. Qanun qarşısında hər kəsin eyni dərəcədə məsuliyyət daşıdığı bu xoşbəxtlər ölkəsində sosial ədalət prinsipinin bütün şərtlərinə əməl olunur, kimsə üçün han-



https://fliphtml5.com/ninpc/iuqd 48/54

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5



sısa xüsusi imtiyaz və üstünlüklər yoxdur. Bacarıq və qabiliyyətə malik olan hər kəs dövlətin idarə olunmasında eyni dərəcədə iştirak edir.

Nizaminin ümumi rifah konsepsiyasının əks olunduğu bu ideal dövlətində başlıca məqsəd öz sakinlərinin ümumi firavanlığını, layiqli həyat tərzini, insanların həqiqi xoşbəxtliyini təmin etməkdən, mənəvi dəyərlərin qorunub saxlanmasından, insanlara yüksək əxlaqi keyfiyyətlərin aşılanmasından, bir-birlərinə qarşılıq yardım göstərmələrindən, adətlərə, qayda-qanuna ehtiramla yanşılmasından ibarətdir.

Platonun ideal dövlətinə gəldikdə isə, bu, ən yaxşıların idarə etdiyi bir quruluşdur. Sakinlərinin təbəqələrə bölgüsünün (hökmdar-filosof olan dövlət başçısı, mühafizəçi-döyüşçülər və maddi nemətləri istehsal edənlər - əkinçi, sənətkar və tacirlər) mövcud olduğu bu ideal dövlətdə ictimai özünüidarə hökm sürür. Əsas atributlarından birinin siyasi hakimiyyət olduğu bu dövlətdən fərqli olaraq, Nizaminin müvafiq konsepsiyasında siyasi hakimiyyət barədə ümumiyyətlə söhbət açılmır. Platonun fikrincə, onun təsəvvür etdiyi iedal dövlət yaradılsa belə, o, əbədi olmayacaqdır. Çünki cəmiyyətdə inkişaf mərhələlərinin dövrləşməsi nəticəsində meydana gözlənilməz hadisələr çıxa bilər. Nizaminin ideal dövləti isə gələcəyə istiqamətlənir və mütəfəkkirdə belə dövlətin gələcəyi üçün hər hansı narahatlıq yaranmır.

Platondan və Aristoteldən fərqli olaraq Nizaminin humanizmi daha demokratikdir. Nizami ideal cəmiyyətdə ailəni ləğv etmir, əksinə onu cəmiyyətin inkişafı nöqteyi-nəzərindən vacib təzahür hesab edir. Onun ideyalarında zülmə və qəddarlığa yol açdığı, insanları aclığa, köləliyə düçar etməsi baxımından müharibələrin əleyhinə çıxdığını, yalnız özünümüdafiə, ədaləti bərpa etmək naminə aparılmasının yolverilən olduğunu gördüyümüz halda, Aristotel müharibələri kölə "ovu" hesab edir və Nizaminin ideallarının əksinə olaraq, dövlətin mövcudluğunun zəruri şərti kimi köləliyin olmasını labüd sayırdı.

Qeyd etmək lazımdır ki, İntibah dünyagörüşünün ən vacib kəşflərindən biri kimi T. Morun, T. Campanellanın, F. Rablenin, M. Servantesin və digərlərinin yaratdıqları, insan cəmiyyəti və insanın özü haqqında idealları ifadə edən bir-birindən fərqli utopiyaların atılmasını göstərmək olar. Orta əsrlərin qanunlarına qarşı yönəlmiş bu utopiyalar ilk növbədə şəhərlərin inkişafı ilə əlaqədar təşəkkül tapan yeni dövrün humanizmini ifadə edirdi. Bu baxımdan Nizami, Avropa utopik dünyagörüşünün nümayəndələrindən daha mütərəqqi fikirlər irəli sürərək özünün avropalı məsləkdaşlarını bir neçə əsr qabaqlamışdı. Nizaminin bu istiqamətdəki axtarışları ömrünün sonuna qədər davam etmişdi və özünün "İsgəndərnamə" poemasında yer alan ideal hökmdar - Makedoniyalı İsgəndər obrazının və ədalətli cəmiyyət haqqında məşhur utopyasının yaranmasına səbəb olmuşdu. Nizaminin utopiyası onun bütün yaradıcılıq yolunun qanunauyğun nəticəsi idi.

Nizaminin "İsgəndərnamə" əsərinin "İqbalnamə" adlanan hissəsində vurğuladığı kimi, bu ideal cəmiyyətdə ədalətin əsası olaraq onun sakinlərinin əxlaqi saflığı və kamilliyi, həmçinin insanların sosial və mülkiyyət bərabərliyi çıxış edir. Mütəfəkkirin təsvir etdiyi ideal ölkədə nə dövlət var, nə hökmdar, nə də təbəələr. Zorakılıq, istismar, sosial və iqtisadi bərabərsizlik aradan qaldırılıb. İnsanlar bərabərdir, eyni hüquq və vəzifələrə malikdir. Nizaminin ideal şəhərinin sakinlərinin oğurluq, yalan, kələk gəlmə haqqında heç bir anlayışı olmadığından şəhərdə polis və məhkəmə yoxdur; bu insanlar "qan tökmürlər" və "sülhün köməyi ilə" müharibələrdən çəkinirlər; heç biri zənginləşməyə can atmır və qızıla dəyər vermir; şəhərdəki maddi sərvətlər bərabər paylanır. Şəhərin məhsuldar torpaqlarında birgə işləmək hər kəsin rifahını təmin edir. Bu ölkənin sakinləri yeməkdə və zövqdə sadədirlər, möhkəm sağlamlığa malikdirlər və uzun ömür sürürlər. Sakinlərinin yüksək mənəvi keyfiyyətləri ilə seçilən, əmək, dostluq, qardaşlıq və azadlıq kimi dəyərlərin hakim olduğu bu ideal cəmiyyət çiçəklənir və inkişaf edir. Mütəfəkkirin utopik fikirlərində dini motiv müəyyən yer alsa da (həyatlarının mənasını dini etiqada, Allaha xidmətə bağlayan ideal dövlətin üzvləri dini bir cəmiyyətdə birləşmişdilər), həmin ideyanın asketik cəhətləri onun mütərəqqi mahiyyətini pərdələyə bilmir. Bu utopik ideyalar hüquqsuz və məzlum xalq kütlələrinin azadlıq, bərabərlik və yer üzündə əbədi sülh haqqında xəyallarını əks etdirirdi.



https://fliphtml5.com/ninpc/iuqd 49/54

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5



Nizami Gəncəvi Şərq ölkələrinin siyasi-hüquqi düşüncəsində yeni bir istiqamətin əsasını qoydu və bütün dünyada humanist ideyaların inkişafına əvəzsiz töhfə verdi: "İstəyim bu işlək yolu açmaqdır, Ədl ilə, biliklə bəzək saçmaqdır ..."(6, s.236). Və yaxud: "Mən məşəl ucaltdım qatı zülmətdən, Zülmün qarşısını taxtaladım mən. Mən hansı bir yerə etdimsə səfər, Ədalətlə bilik qazandı ellər" (6, s.584). Tolerantlıq, multikultural təfəkkür, milliyyətindən və dini etiqadından asılı olmayaraq bütün insanlara hörmət şairin bütün əsərlərində qırmızı xətlə keçir. Şübhəsiz ki, Nizami vətənini, xalqını fədakarcasına sevirdi və hədsiz sədaqətlə onlara bağlı idi. Onun Qarabağın füsunkar bir guşəsində yerləşən qədim Azərbaycan şəhəri olan Bərdənin gözəlliyini və əzəmətini hansı parlaq rənglərlə təsvir etdiyini xatırlamaq kifayətdir. Mütəfəkkir Bərdə hökmdarı Nüşabənin gözəlliyini, müdrikliyini, ədalətini, ləyaqətini nə qədər sevgi və heyranlıqla ("İsgəndərnamə") tərənnüm edir. Bununla belə, Nizami heç vaxt öz ölkəsini və xalqını digərlərinə qarşı qoymamış, bütün xalqlara və onların adətlərinə hörmətlə yanaşmışdı. Onun əsərlərində azərbaycanlıların, yunanların, bizanslıların, rusların, afrikalıların, hindlilərin və s. nümayəndələri təsvir olunur və onların hamısından böyük rəğbətlə bəhs edilir, digər xalqların mədəniyyətlərinin və ənənələrinin maraqlı tərəfləri açılıb göstərilir. Mütəfəkkir üçün başlıca amal irqindən və inancından asılı olmayaraq insanın əxlaqi mahiyyətidir. Nümunə üçün onun afrikalılar haqqında söylədiyi "onların siması qara olsa da, düşüncələri parlaqdır, qəlbləri nur saçır və bu, böyük hörmətə layiqdir" fikirlərini göstərmək olar (21).

İnsan azadlığından bəhs edən Nizami Gəncəvi hələ öz zamanında müasir dünyanın bütün dövlətlərinin konstitusiya aktlarında yer almış ideyalar haqqında fikir yürütməklə bir növ bizim müasirimizə çevrilir. İnsanın öz hərəkətlərində sərbəst olmasının zəruriliyini, lakin bu hərəkətlərin cəmiyyətin mənəvi əsaslarına qarşı yönəlməməsinin, kollektiv birgəyaşayış qaydalarına zidd olmamasının vacibliyini vurğulayan mütəfəkkir ideal cəmiyyətdən danışarkən azadlıq və ədalətin qarşılıqlı əlaqəsini, eləcə də gerçəklikdə olan, vacib olan və həqiqi olanın nisbəti məsələlərini açıb göstərirdi. Onun fikrincə, dərrakəyə və intellektə malik olan insan öz əməllərini yalnız öz mənafeyi ilə deyil, başqalarının da maraqları ilə uzlaşdırmağı, əlaqələndirməyi bacarmalıdır. Mütəfəkkir insanlar arasındakı qarşılıqlı münasibətlərin necə qurulmalı olduğunu, fərqli baxışlara, maraqlara, intellektual səviyyələrə malik insanların bir arada necə yaşaya və cəmiyyəti zənginləşdirə biləcəyini, maddi və mənəvi dəyərlər yarada biləcəyini, kollektiv səylərlə formalaşan maddi nemətlərdən eyni dərəcədə necə istifadə edə biləcəyini aydın şəkildə izah edir.

Özünün bütün yaradıcılığı boyu Nizami kainatın ədalətli şəkildə yenidən qurulması, şəxsiyyətin və cəmiyyətin mənafelərinin uyğunlaşdırılması barədə mütərəqqi siyasi-hüquqi fikirləri tərənnüm və təbliğ etmişdi. Həmin fikirlər də öz növbəsində Azərbaycanda və onunla qonşu olan ölkələrin ərazisində yaşayan bütün xalqların siyasi-hüquqi ideologiyasının, mənəvi-mədəni və siyasi-hüquqi dəyərlərinin formalaşması və inkişafına, həmçinin dünyanın bir çox ölkələrinin siyasi və hüquqi mədəniyyətlərinin inkişafına böyük təsir göstərmiş oldu.

Qeyd etmək lazımdır ki, dahi mütəfəkkir tərəfindən irəli sürülmüş siyasi-hüquqi ideyalar, hasil edilmiş dəyərlər həm də o cəhətdən mühümdürlər ki, onlar müxtəlif situasiyalarda konstitusion və digər siyasi-hüquqi institutların qiymətləndirilməsi meyarlarının işlənib hazırlanması ilə, xüsusən də onların Azərbaycan Respublikasının müasir dövlət-hüquqi inkişaf praktikasında digər siyasi sistemlərdən əxz edilməsi ilə sıx bağlıdırlar.

Nəticə olaraq belə bir qənaətə gəlmək olar ki, Qərb ölkələrinin bu gün böyük səylə təbliğ etdiyi və "özününküləşdirməyə" çalışdığı bir çox siyasi, sosial-mədəni və hüquqi dəyərlər müstəsna olaraq yalnız Qərb siyasi və hüquqi mədəniyyətinin məhsulu deyildir. Həmin dəyərlərin tarixi köklərinin dərindən öyrənilməsi və təhlili də bunu sübut edir. Onların təşəkkülü, inkişafı və yayılmasında özünün tam dəyərini almasa da, Şərq sosial-siyasi və fəlsəfi-hüquqi fikrinin əhəmiyyəti heç də az olmamışdır. Belə ki, humanizm, azadlıq, ədalət, bərabərlik, hüquqi nizam və s. kimi ideayalara Nizami Gəncəvi, Əl-Fərabi, İbn Sina, İbn Rüşd, Xəqani Şirvani,



https://fliphtml5.com/ninpc/iuqd 50/54

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5



Cəlaləddin Rumi, Siracəddin Urməvi, Nəsirəddin Tusi, Əvhədi Marağayi, Fəzlullah Nəimi, İmadəddin Nəsimi, Məhəmməd Fizuli, Yusuf Qarabaği və digər mütəfəkkirlərin baxışlarında kifayət qədər əhəmiyyətli yer ayrıldığını görmək olar. Əlbəttə ki, hökmranlıq edənlərlə tabelikdə olanlar arasındakı münasibətlərin sosial harmonizasiyası və təkmilləşdirilməsi ilə bağlı axtarışlar Qərb və Şərq mütəfəkkirlərini eyni dərəcədə narahat edirdi və onlar bu məsələlərdə müəyyən fikir müxtəlifliyinə rəğmən bir çox cəhətdən eyni nəticələrə gəlmişdilər. Bütün bu mütəfəkkirlərin səyləri ilə fəlsəfə, etika, siyasət və hüquq sahələrində həqiqi mənada ümumbəşəri dəyərlər irəli sürülmüş və inkişaf etdirilmişdi.

Nizami Gəncəvinin sosial-siyasi və hüquqi baxışlarının təhlili nəticəsində gəlinən qənaət həm də bundan ibarətdir ki, dahi mütəffəkirin mühakimələri müasir gerçəkliklərlə uzlaşır. Onun çoxsaylı düşüncələri və ortaya qoyduğu dəlillər müasir elm üçün böyük maraq kəsb edir və Azərbaycanın hüquqi reallığının əks olunduğu sistemin təkmilləşdirilməsi, islahatlaşması prosesində praktiki baxımdan istifadə oluna bilər. Nizami Gəncəvinin əsərləri fəlsəfi və siyasi-hüquqi elmləri inkişaf etdirməklə, eyni zamanda Azərbaycanın siyasi-hüquqi fikrinin ənənələrini yaşatmaqda davam etdirir. Bu ənənənin mühüm xüsusiyyətlərindən biri əxlaqi-hüquqi məsələlərin cəmləşdirilməsi, mənəvi ideala daha çox yaxınlaşmaqdır ki, bu da yalnız institusional dəyişikliklərin deyil, həm də cəmiyyətin sosial-psixoloji, ideoloji, mənəvi başlanğıclarının yenidən nəzərdən keçirilməsinin tələb olunduğu müasir Azərbaycan üçün olduqca mühümdür.

## ƏDƏBİYYAT

1. Araslı Həmid. Azərbaycan ədəbiyyatı: tarixi və problemləri. Bakı: Gənclik, 1998, 732 s.
2. İsmayılov X.C. Azərbaycanın hüquq tarixi. Bakı: Elm və Təhsil, 2015, 572 s.
3. Quliyev A.İ. Azərbaycanın ictimai-siyasi fikrində sosial ədalət ideyası. Bakı: Təknur, 2008, 352 s.
4. Nizami Gəncəvi. Sirlər xəzinəsi. Bakı: Elm, 1983, 260 s.
5. Nizami Gəncəvi. Xosrov və Şirin. Bakı: Yazıçı, 1983, 456 s.
6. Nizami Gəncəvi. İsgəndərnamə. Bakı: Yazıçı, 1982.
7. Nizami Gəncəvi. İsgəndərnamə. II hissə (İqbalnamə). Bakı: Çaşıoğlu, 2007, 395 s.
8. Аристотель. Сочинения в 4-х томах /Аристотель; общ. ред. А. И. Доватур; пер. с древнегреческого. Н. В. Брагинской, М. Л. Гаспарова, С. А. Жебелева [и др.]; АН СССР, Ин-т Философии Т. 4.-Москва : Мысль , 1984. 830 с.
9. Гаджиев А. Ренессанский мир "Хамсе" Низами Гянджеви. Баку, 2000. 296 с.
10. Крымский А. Е. Низами и его современники. - Баку: Элм, 1981, 491 с.
11. Кулиева Ш.И. Философские и этические взгляды Низами Гянджеви в поэме "Сокровищница тайн" // Актуальные вопросы общественных наук: социология, политология, философия, история: сб. ст. по матер. XXV междунар. науч.-практ. конф. - Новосибирск: СибАК, 2013; https://sibac.info/conf/social/xxv/33208.
12. Мамедова Д.М. Политико-правовые взгляды азербайджанских поэтов-мыслителей XII в. Диссерт. на соискание уч.степ. кандидата юридических наук. Москва. 2002, 164 с.
13. Меликова М.Ф. Эпоха Низами Гянджеви и просветительство // Политика и право: история и современность (тематический сборник научных трудов). Баку: Изд.-во Бакинского Университета, 1991, 101 с., с.3-12.
14. Низами Гянджеви. Стихотворения и поэмы. Л.: Советский писатель, 1981, 791 с.
15. Платон. Собрание сочинений. В 4 т. Т.3. М.: Мысль, 1994. 654 с.
16. Рзаев А.К. Очерки истории политико-правовых учений Азербайджана. Баку: Азернешр, 1983, 195 с.
17. Энгельс Ф. Диалектика природы / К. Маркс, Ф. Энгельс. Сочинения: в 30 т. Изд. 2-е. М.: Госполитиздат. Т. 20. 1961, 827 с.; http://www.uaio.ru/marx/20.htm.
18. Christine van Ruymbeke, "Science and Poetry in Medieval Persia: The Botany of Nizami's Khamsa", University of Cambridge Press, 2008, 252 p.
19. https://cyberleninka.ru/article/n/nizami-gyandzhevi-na-vershine-mudrosti.
20. http://ebooks.azlibnet.az/book/mNwo1SaR.pdf.
21. http://www.elibrary.az/docs/jurnal/jrn2017_685.pdf.
22. https://president.az/articles/49904



https://fliphtml5.com/ninpc/iuqd 51/54

Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 14-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Ailə Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 3 (I kitab), maddə 126; 2002, N 12, maddə 702; 2004, N 7, maddə 505; 2006, N 2, maddə 66, N 11, maddə 923, N 12, maddələr 1005, 1006; 2007, N 1, maddə 4, N 8, maddə 745, N 11, maddə 1053, N 12, maddə 1218; 2008, N 7, maddə 602; 2010, N 2, maddə 70, N 3, maddə 171, N 5, maddə 380, N 7, maddə 578; 2011, N 7, maddələr 585, 620, N 12, maddə 1110; 2014, N 12, maddə 1515; 2019, N 2, maddə 185, N 5, maddə 800, N 12, maddə 1906; 2020, N 7, maddə 832; Azərbaycan Respublikasının 2020-ci il 20 noyabr tarixli 199-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 117.6-1-ci maddəyə "qohumu" sözündən sonra "(bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları)" sözləri, "övladlığa verilməsinə" sözlərindən sonra "onlar uçota alındıqları gündən" sözləri əlavə edilsin.

2. 118-ci maddə üzrə:

2.1. 118.3.2-ci maddədə "şəxslərin" sözü "şəxsin (şəxslərin)" sözləri ilə əvəz edilsin;

2.2. 118.3.3-cü maddəyə "şəxsə" sözündən sonra "(şəxslərə)" sözü əlavə edilsin;

2.3. 118.15-ci maddədə "yaxın qohumlar" sözləri "qohumları" sözü ilə, "118.1.1-ci və 118.3.1-ci maddələrinin tələbləri həmin şəxslərə də şamil edilir" sözləri "118.3.2-118.3.5-ci maddələrinin tələbləri həmin şəxslərə şamil edilmir" sözləri ilə əvəz edilsin;

2.4. 118.24-cü maddədə "yaxın qohumlar" sözləri "qohumları" sözü ilə əvəz edilsin.

3. 119-cu maddə üzrə:

3.1. 119.4-cü maddədə "Yaxın qohumlar" sözləri "Qohumları" sözü ilə əvəz edilsin və həmin maddəyə "tərəfindən" sözündən əvvəl ", eləcə də ögey ata (ögey ana)" sözləri əlavə edilsin;

3.2. 119.11-ci maddədə "119.9.2-ci" sözləri "119.10.2-ci" sözləri ilə əvəz edilsin.

4. 120.1.8-ci maddədə "yaxın qohumlar" sözləri "qohumları" sözü ilə əvəz edilsin.

5. 120.4-cü maddədə "yaxın qohumları olan" sözləri "qohumları (bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları) tərəfindən" sözləri ilə əvəz edilsin.

6. 121.1-ci və 121-2-ci maddələrdə "yaxın qohumlar" sözləri "qohumları" sözü ilə əvəz edilsin.

7. 124-cü maddə üzrə:

7.1. 124-cü maddənin adı aşağıdakı redaksiyada verilsin:

**"Maddə 124.** Valideyn himayəsindən məhrum olan uşaqların övladlığa götürülməsinə razılıq";

7.2. 124.2-ci maddədə "yazılı razılığı lazımdır" sözləri "həmin uşaqlarla bağlı fikri öyrənilir" sözləri ilə əvəz edilsin;

7.3. 124.3-cü maddədə "fikri öyrənilir" sözləri "rəyi alınır" sözləri ilə əvəz edilsin;

7.4. 124.4-cü maddəyə "razılığı olmadan" sözlərindən sonra "və ya fikri nəzərə alınmadan" sözləri əlavə edilsin.

8. 134-cü maddə üzrə:

8.1. 134.10-cu maddədə "da" sözü "bu Məcəllənin 125.3-cü maddəsi ilə müəyyən edilmiş tələblər nəzərə alınmaqla" sözləri ilə əvəz edilsin;

10/05/2024, 11:51 "Qanunçuluq" jurnalı - gadirnovruzov | PDF Onlayn | FlipHTML5



8.2. 134.11-ci maddə ləğv edilsin.

9. 142.1-ci maddədə "uşağı" sözü "uşağın" sözü ilə, "vermə müqaviləsi" sözləri "verilməsinə dair müqavilə" sözləri ilə əvəz edilsin.

10. 145.3-cü maddənin birinci cümləsində "rəyi" sözü "fikri" sözü ilə əvəz edilsin.

11. 155.3-cü maddəyə birinci halda "vətəndaşı" sözündən sonra ", habelə əcnəbi və vətəndaşlığı olmayan şəxs" sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 9 mart 2021-ci il.*
*N 280-VIQD*

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 17, N 5, maddə 323; 2002, N 5, maddə 236; 2003, N 1, maddələr 23, 24, N 6, maddə 279; 2004, N 7, maddə 505, N 8, maddə 598, N 10, maddə 761; 2005, N 4, maddələr 277, 278; 2006, N 2, maddə 64, N 12, maddə 1006; 2007, N 1, maddələr 3, 4, N 2, maddə 68, N 5, maddə 439, N 6, maddə 560, N 7, maddə 712, N 8, maddə 756; 2008, N 6, maddə 462, N 7, maddə 602, N 12, maddə 1046; 2009, N 6, maddə 402; 2010, N 2, maddə 75, N 4, maddə 276; 2011, N 6, maddələr 471, 476, N 7, maddələr 583, 619, N 12, maddələr 1096, 1105; 2012, N 5, maddə 411, N 6, maddə 511; 2013, N 5, maddə 472, N 6, maddə 625, N 11, maddələr 1266, 1307; 2015, N 6, maddə 677, N 12, maddə 1435; 2016, N 5, maddə 836, N 6, maddə 1016, N 11, maddələr 1761, 1763, N 12, maddə 2047; 2017, N 2, maddə 155, N 4, maddə 523, N 5, maddələr 706, 750, N 11, maddələr 1935, 1975; 2018, N 5, maddə 879, N 8, maddə 1672, N 11, maddələr 2209, 2225, N 12 (I kitab), maddələr 2524, 2534; 2019, N 1, maddə 23, N 5, maddələr 792, 812, N 7, maddə 1197, N 12, maddələr 1897, 1907; 2020, N 7, maddə 832, N 11, maddə 1333) aşağıdakı dəyişikliklər edilsin:

1. 347-ci maddə üzrə:

1.1. 347.1.1-ci maddəyə "şəxs" sözündən sonra "(Azərbaycan Respublikasının vətəndaşı, habelə qohum (bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları) olan əcnəbi və vətəndaşlığı olmayan şəxs)" sözləri əlavə edilsin;

1.2. 347.3-cü maddəyə "vətəndaşları" sözündən sonra ", əcnəbilər və vətəndaşlığı olmayan şəxslər" sözləri əlavə edilsin.

2. 348-ci maddə üzrə:

2.1. 348.2.5-ci maddədən "ögey valideynlərinin," sözləri çıxarılsın və həmin maddəyə "valideynlərin" sözündən sonra ", qəyyumun (himayəçinin)" sözləri əlavə edilsin;

2.2. 348.2.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

"348.2.6. valideyn himayəsindən məhrum olmuş uşağın övladlığa götürülməsinə dair həmin uşağın yerləşdiyi müəssisənin rəhbərinin rəyi və ya uşağın tərbiyə olunduğu himayədar ailənin yazılı ifadə olunmuş fikri;".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 9 mart 2021-ci il.*
*N 281-VIQD*



https://fliphtml5.com/ninpc/iuqd 53/54

# QANUNÇULUQ

hüquq jurnalı

**BURAXILIŞA MƏSUL:**
**Rasim Həsənov**

Təsisçinin hüquqi ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 510-10-01, 537-05-54
Qaynar xətt: (+99412) 539-76-75
www.justice.gov.az / contact@justice.gov.az

***

Redaksiyanın ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 537-06-40
Email: mojpress@justice.gov.az

"Qanunçuluq" jurnalı redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş, "Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
"Ədliyyə Nəşriyyat Evi" MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: "Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail
filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x
Sifariş: 10 Tiraj:1000 ədəd